

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Mixail Qusman: "İlham Əliyevin Şuşa forumundakı çıxışı dünya mediasının gündəmində oldu"**



4


# SƏS

№ 133 (6816)

29 iyul 2023-cü il.
Qiymәti 60 qәpik


# "Dəmir yumruğ"un Zəfər zərbəsi!

*Azərbaycan XXI əsrin müharibəsini apardı. Və 44 gün davam edən XXI əsrin müharibəsi bizim dəmir yumruq kimi birliyimizi, gücümüzü, mümkünsüzü mümkün edən güclü ordumuzun rəşadətini, qəhrəmanlığını göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi: «Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi.*



2

# Ermənilər gəldikləri yerlərə köçürülməlidir

*Bütün tərəqqipərvər xalqlara məlumdur ki, erməni toplumu insanlığın düşmənidir. Bunu onlar yerləşdikləri ərazilərdə, yaşdıqları torpaqlarda xalqlara qarşı törətdikləri talançılıqlarla, soyqırımı aktları ilə qazanıblar. Bu baxımdan, demokratik düşüncəli dünya xalqları ermənilərə qarşı nifrət hissi bəsləyirlər. Elə bir tanınmış tarixi şəxsiyyət yoxdur ki, erməniləri pisləməsinlər, onlar haqqında tənqidi ifadələr səsləndirməsinlər. Tarixin müxtəlif dönəmlərində köçəri, quldur, yolkəsən, oğru formasında həyat tərzi keçirmiş ermənilər sonradan müxtəlif güclərin dəstəyi və himayəsi ilə müəyyən ərazilərdə, əsasən də Azərbaycanın bölgələrində yerləşdirilmişlər.*





9

**Cəmil Həsənlinin "Soros"la Vətənə xəyanət etirafı**



12

**ŞOK: Piylənmə Azərbaycan iqtisadiyyatına 3 milyard zərər vuracaq!**



15

**Övladlığa götürməklə bağlı qaydalar dəyişdi: hansı yeniliklər var?**



16

# Laçına növbəti köç

*Bütün dünyanın diqqəti işğaldan azad olunan ərazilərimizə cəmlənib. Ermənilərin xarabazarlığa çevirdiyi şəhər və kəndlərimiz, qəsəbələrimiz, dini-mədəni abidələrimiz, insanlığa sığmayan əməllər nəticəsində darmadağın edilmiş, viran qoyulmuşdur.*



11

**Broyler təhlükəsi: toyuq və yumurta nəyə deyilir?**



16

# “Dəmir yumruğ”un Zəfər zərbəsi!



**PREZİDENT İLHAM ƏLİYEV: “Azərbaycan XXI əsrin müharibəsini apardı, bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb”**

***Azərbaycan XXI əsrin müharibəsini apardı. Və 44 gün davam edən XXI əsrin müharibəsi bizim dəmir yumruq kimi birliyimizi, gücümüzü, mümkünsüzü mümkün edən güclü ordumuzun rəşadətini, qəhrəmanlığını göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi: «Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi. Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu. Bizdə olan İsrail dronları kəşfiyyat dronları və kamikadze dronları idi, Türkiyə dronları kəşfiyyat dronları və qırıcı dronlar idi. Bunları bir hərbi əməliyyatda birləşdirmək asan deyildi».***

## BU ZƏFƏR 20 İLLİK MÜSTƏQİL, QƏTİYYƏTLİ, PRİNSİPİAL SİYASƏTİN BARİZ TƏCƏSSÜMÜDÜR

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan, Prezident İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü. Ulu Öndər Heydər Əliyevin layiqli varisi, onun yarımçıq qalan arzularını gerçəkliyə çevirən Prezident İlham Əliyevin siyasi iradəsi, düşünülmüş və hərtərəfli təhlildən keçmiş siyasi strategiyası, sərkərdəlik məharəti sayəsində Azərbaycanın bütün ərazisində suveren hüquqlarımız bərpa edildi, qalib dövlətə çevrildik, müzəffər xalq olduq, ölkəmiz bütün dünyaya yeni imicdə göründü, beynəlxalq aləm Azərbaycanı qüdrətli dövlət kimi yenidən kəşf etdi. Bu şanlı Zəfərlə Ali Baş Komandanımız, Prezident İlham Əliyev bir daha alternativsiz Lider olduğunu təsdiqlədi və hər zaman sülh tərəfdarı olduğunu dünyaya bəyan etdi. Çünki .





## QIRX DÖRD GÜNLÜK MÜHARİBƏNİN HƏR BİR GÜNÜ QƏHRƏMANLIQ DASTANIDIR

Bəli, cəmi 44 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Güney Qafqaz regionunda yeni reallıq bərqərar olsun və bu 44 gün müddətində terrorçu Ermənistanın “status-kvo”nu ürəyində qalsın. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də dəfələrlə bildiridi ki, “status-kvo” artıq yoxdur: “Status-kvo” deyilən məsələ yoxdur. Qurtardı getdi. “Status-kvo” belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu. Bax, orada, döyüş meydanında. “Status-kvo” yoxdur. Təmas xətti – yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qururdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub – 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq”.

Bəli, “Dəmir yumruq” birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı. Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın “Dəmir yumruğ”unun ətrafında birləşməsi ilə bütün dünyaya gücünü göstərdi. Ermənistan bu illər ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərməsinə baxmayaraq, Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə birgə Bəyanat imzalandı. Bu bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu «Dəmir yumruğ»un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu.



## ERMƏNİSTAN QƏBUL EDİB Kİ, QARABAĞ AZƏRBAYCANDIR VƏ ARTIQ SƏNƏDƏ İMZA ATMAQ MƏRHƏLƏSİDİR

Azərbaycan Prezidenti İlham Əliyev “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib ki, hazırda üç beynəlxalq tərəf var ki, bu prosesə dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur. “Düşünürəm ki, Ermənistan son bir addım atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam olub. Onlar Ermənistana birbaşa nümayiş etdirdi ki, onlar bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun onlar üçün nə məna daşıdığı kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır, bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sırf mühüm sonuncu məqamdır”, - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

Bir sözlə, bu gün artıq Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər. Dövlət başçımızın dediyi kimi: «Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik». Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***

# Mixail Qusman: "İlham Əliyevin Şuşa forumundakı çıxışı dünya mediasının gündəmində oldu"



***Şuşada "4-cü sənaye inqilabı dövründə yeni media" mövzusunda keçirilən qlobal media forumu öz işini başa çatdırıb. Dünyanın hər yerindən bu müzakirə platformasına gələn media nümayəndələri üçün isə genişmiqyaslı forum çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə forum iştirakçıları arasında geniş və səmimi söhbətlə başlaması çox vacib idi. Bu barədə TASS İnformasiya Agentliyinin baş direktorunun 1-ci müavini Mixail Qusman "Moskva-Baku" portalına müsahibəsində mediaforumun yekunlarını analiz edərkən deyib. Müsahibəni oxucularımıza təqdim edirik.***



***- Mixail Solomonoviç, son forum, xüsusən də, Azərbaycan Prezidentinin media nümayəndələri ilə dialoqu barədə təəssüratlarınız necədir?***

- Bu, 50-yə yaxın ölkədən görkəmli və tanınmış jurnalistləri Şuşada birləşdirən böyük forumdur ki, bu da özlüyündə media məkanında nəzərə çarpan və əlamətdar hadisədir. Bu forum müxtəlif medianı təmsil edən peşəkarları bir araya gətirdi. Bundan əlavə, Şuşaya forum üçün politoloqlar, media idarəçiliyi ilə məşğul olan şəxslər gəlib. Beləliklə, forumun tərkibi çox zəngin idi. Və çox vacibdir ki, bir neçə maraqlı, dərin panel müzakirələrini özündə cəmləşdirən forumun işi böyük və səmimi söhbətlə başladı, mən tam olaraq bunu deyərdim - Azərbaycan Prezidenti İlham Əliyevlə forum iştirakçıları arasında söhbət. . Əvvəldən o, uzun açılış nitqindən qaçmaq və həmkarlarımın verəcəyi suallara daha çox vaxt ayırmaq istədiyini söylədi.

Həqiqətən də, demək olar ki, üç saatlıq görüşdə prezident beynəlxalq həyatın müxtəlif aspektlərinə aid onlarla suala cavab verə bildi: Azərbaycana aid olan məsələlər; Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişafı məsələləri; Qarabağ nizamlanması məsələləri; Qoşulmama Hərəkatının inkişafına diqqət tələb edən məsələlər və sairə. Deməliyəm ki, İlham Heydəroviç Əliyevin cavabları diqqətli, dəqiq və bütün iştirakçılar üçün son dərəcə maraqlı idi. Təsadüfi deyil ki, yüzlərlə dünya mediası Azərbaycan prezidentinin cavablarından sitat gətirib. Və bu görüş bütün forumun tonunu təyin etdi. Bu, forumun sonrakı günlərində məhsuldar və dərin söhbət üçün çox mühüm təkan oldu.

***- Şuşada keçirilən media forumunda siz Azərbaycan Prezidenti ilə söhbət edərkən Qoşulmama Hərəkatının İnformasiya Agentlikləri Təşkilatının yaradılmasını təklif etdiniz. Niyə belə bir fikir yarandı və prezident bu təklifə necə reaksiya verdi?***

- Mən həqiqətən də cənab Prezidentə Qoşulmama Hərəkatının inkişaf etdirilməsi ideyasını- o cümlədən media sahəsində- təklif etdim. Çünki bir neçə il Qoşulmama Hərəkatına rəhbərlik edən Azərbaycanın təşəbbüsü ilə, Qoşulmama Hərəkatına rəhbərlik etmiş Prezident Əliyevin şəxsi təşəbbüsü ilə indiyə qədər mövcud olmayan bir neçə müxtəlif formatlar artıq baş verib. Bu, Qoşulmama Hərəkatının parlament formatıdır, qadınlar forumudur, gənclər forumudur. Və hamısı böyük rezonans doğurdu. Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı yeni, çox güclü və böyük nüfuz qazandı. Və mənə elə gəldi ki, bu Hərəkatı media əməkdaşlığı formatı ilə doldursaq, bu Hərəkat üçün çox faydalı ola bilər. Mən Qoşulmama Hərəkatı ölkələrinin media məkanının aparıcı mütəxəssislərinin dəvəti ilə Qoşulmama Hərəkatı ölkələrinin informasiya agentlikləri rəhbərlərinin 1-ci qurultayının keçirilməsini təklif etdim. Və mənə elə gəldi ki, Azərbaycan Prezidenti bu Hərəkatın hazırkı lideri kimi mənim təklifimi dəstəklədi.

***- Prezident sizə bu ideyanın həyata keçirilməsində iştirak etməyi təklif edibmi?***

- Bəli. Qoşulmama Hərəkatında Rusiya müşahidəçi funksiyasını yerinə yetirir. Ona görə də biz böyük məmnuniyyətlə əlimizdə olan bütün imkanları bölüşəcəyik və bu forumun təşkilatçılarına kömək edəcəyik.

***- Siz Rusiyada və Azərbaycanda baş verən hadisələrə müxtəlif qiymətlər verildiyi, müxtəlif təhlillər aparıldığı, müxtəlif fikirlərin səsləndirildiyi bugünkü çətin şəraitdə Moskva Bəyannaməsinin icrasının səmərəliliyi barədə də Azərbaycan Prezidentinə sual verdiniz. Prezidentin cavabı sizi qane etdimi?***

- Mənə elə gəldi ki, prezident Moskva memorandumunda nəzərdə tutulan müddəaların işlənib hazırlanmasını və müddəaların həyata keçirilməsini çox nikbin və yüksək müsbət notda görür. O, birmənalı və birbaşa bildirib ki, dünyada heç bir təlatümlü proseslər Rusiya-Azərbaycan münasibətlərinin ardıcıl və sistemli inkişafına mane olmayacaq. Mən yalnız Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin sözlərinə qoşula bilərəm ki, onlar da Moskva bəyannaməsinin işlənib hazırlanmasını yüksək qiymətləndirir.

***Tərcümə - Elçin Bayramlı***

# Meşə yanğınları ekologiyaya necə təsir edir?



"Dünyada tüğyan edən meşə yanğınları əlbəttə ki ekologiyaya mənfi təsir göstərir. Meşə yanğınları müxtəlif səbəblərdən baş verir". Bu sözləri SİA-ya açıqlamasında ekoloq Qorxmaz İbrahimli deyib.

Onun sözlərinə görə, meşə yanğınları əsasən insanların piknik zamanı, siqareti tam sönməmiş halda yerə tullamaları nəticəsində təsadüfən və ya qəsdən törədilir. Qəsdən meşə yanğınlarını ona görə törədir ki, insanlar bu və ya digər əraziləri əkin sahəsinə çevirmək istəyirlər. Brazilya daxil Cənubi Amerikanın bir çox bölgəsində meşə ərazilərini yandırmaqla tala hissələrinin yaranmasına səbəb olur".

Ekoloq sözlərinə davam edərək bildirib ki, bəzi yerlərdə də istirahət zonaları yaratmaq üçün qəsdən meşə yanğını törədilir: "Eyni zamanda ildırım çaxmasından və qızmar istilərdən də bu yanğınlar baş verə bilir. Təbii ki, meşə yanğınlarının karbon qazının və karbon-dioksidin artmasında böyük rolu var. Bütün bunlar təbiət üçün təəssüf hissi doğurur".

***Ləman***

# "Fransa rəhbərliyi erməni diasporunun təsiri altındadır"

"Fransa ilk dəfə deyil ki, Azərbaycana qarşı aqressiv münasibət göstərir. Birinci Qarabağ müharibəsindən 2020-ci ilə qədər olan dövrdə də Fransa həmişə öz mövqeyini açıq-aşkar olmasa da, hansısa formada ortaya qoyurdu. Yəni, məsələnin həlli istiqamətində uğurlu addım atmaq üçün heç bir cəhd göstərməyib. II Qarabağ Müharibəsi zamanı Azərbaycanın əldə etdiyi qələbə təbii ki, Fransanı və digər ermənipərəst qüvvələri narahat etməyə başladı. Bunun bir çox səbəbi var. Həmin səbəblərdən birincisi odur ki, bugünkü gündə Fransa rəhbərliyi demək olar ki erməni diasporunun təsiri altındadır. İkinci səbəb Azərbaycan və Ermənistan münasibətlərinin tənzimlənməsində Fransa əsas rol oynamağa çalışır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aqil Məmmədov deyib.

Onun sözlərinə görə, Azərbaycan müstəqil siyasət yürüdür: "Eyni zamanda, həm əvvəl, həm də indi Fransanın münasibətini və mövqeyini açıq-aşkar gördüyü üçün Azərbaycan onun Ermənistanla olan görüşlərdə iştirakını qəbul etmir. Fransanın bu məsələdə mövqeyi bəllidir. Ermənistan görüşlərdə başqa, görüşdən kənar isə tamam başqa cür danışması da məhz fransasayağı qüvvələrin təsirindən irəli gəlir.



Dünya ictimaiyyəti də artıq bilir ki, Azərbaycan müstəqil suveren bir dövlətdir. Yalnız dövlətlərarası razılaşma olduqdan sonra Azərbaycan ərazisinə hər hansı başqa dövlətdən yük daxil ola bilər. Amma Azərbaycanla heç bir danışıq aparmadan Ermənistan humanitar yardım adı altında oraya maşınlar toplayırsa, bu, yalnız dünya ictimaiyyətinin diqqətini çəkmək üçün atılmış bir addımdır".

Deputat sözlərinə davam edərək bildirib ki, Ermənistanın əsl üzü bütün aparıcı dövlətlərə, beynəlxalq qurumlara bəllidir: "Elə başa düşürəm ki, Ermənistanın Qarabağda yaşayan ermənilərin blokadaya alındığını göstərməsi qəbulolunmazdır. Bu gün Azərbaycan təklif edir ki, hər bir azərbaycanlı kimi Qarabağda yaşayan və vətəndaşlığımızı qəbul etmiş ermənilərin hüquqları da qorunacaq. Eyni zamanda, onlara daha əlverişli olan Ağdam yolundan istifadə etmələri də təklif olunur. Ancaq Ermənistan məqsədli şəkildə dünya ictimaiyyətinin diqqətini yayındıraraq oyunlar oynayır. Amma düşünürəm ki, bunlar keçərli deyil. Artıq erməni siyasətinin iç üzü bəllidir. Ermənistan müstəqil siyasət yürüdə bilmir, havadarlarının otur deməyi ilə oturur, qalx deməyi ilə qalxır. Ermənistan Azərbaycanın verdiyi təkliflərdən nəticə çıxarmalı və sülh sazişinin imzalanmasını uzatmamalıdır. Bu, həm Ermənistan, həm Azərbaycan, həm də ümumilikdə region üçün xeyirli olar".

***L. Sərraf***

# Güclü dövlət, güclü ordu, Qalib Lider!

## İLHAM ƏLİYEV: "Bu gün Ordumuz üç il bundan əvvəlki ordudan daha güclüdür"



*Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib ki, Silahlı Qüvvələrimizin modernləşdirilməsi istiqamətində işlər plan üzrə gedir: "Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir".*

İkinci Qarabağ müharibəsindən sonra Silahlı Qüvvələrimizdə aparılan islahatların hələ başa çatmadığını qeyd edən dövlətimizin başçısı deyib: "Biz öz Silahlı Qüvvələrimizi ən qabaqcıl orduların səviyyəsinə çatdırmalıyıq, yəni, təbii ki, Azərbaycan miqyasını nəzərə almaq şərtilə. Struktur islahatları, idarəetmə və özünü müdafiəetmə qabiliyyəti nöqteyi-nəzərdən biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək. Bu gün də belədir, amma daha böyük işlər də görülməlidir".

Prezident deyib ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir, Azərbaycan xalqı bundan sonra da rahat yaşaya bilər və yaşamalıdır. "Bizim qarşıda duran vəzifələrimizdən biri təbii ki, Ermənistanla olan münasibətlərimizdir. Burada, bu sahədə, yəni, nəticə təkcə bizdən asılı deyil. Halbuki bizim siyasətimiz Ermənistan tərəfini də vacib addımların atılmasına sövq edir. Ancaq, əlbəttə ki, bu, qarşılıqlı fəaliyyətdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Eyni zamanda, iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında da ordumuzun getdikcə daha güclü olması üçün müdafiə sahəsində dərin islahatlar həyata keçirildiyini deyib: "Biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə möhtəşəm Zəfərimizi nümayiş etdirən Qarabağ müharibəsi bitən kimi biz dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq".

Bu gün Ordumuzun üç il bundan əvvəlki ordudan daha güclü olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Əlbəttə ki, buna ehtiyac var, o da bizim tariximizdən qaynaqlanır. Biz görürük ki, bu gün beynəlxalq hüququn normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir, biz uzun illər bu yanaşmaya məruz qalmışıq". BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmalı olduğu ilə bağlı dörd qətnamə qəbul etdiyini xatırladan Prezident İlham Əliyev qeyd edib: "Ancaq o qətnamələrə riayət edilmədi və bu gün həmin o tendensiya davam edir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda, sülhün qarantiyası yalnız gücdür".

### SON 20 İLDƏ PREZİDENT İLHAM ƏLİYEVİN DİPLOMATİK VƏ "DƏMİR SİYASƏTİ" 44 GÜNDƏ MÜMKÜNSÜZÜ MÜMKÜN ETDİ

Bəli, iyirmi il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyası bu gün Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu.

Rəşadətli Ordumuz öz gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.



### QALİB SƏRKƏRDƏNİNİ "DƏMİR YUMRUQ" ƏMƏLİYYATI İLƏ 44 GÜN DAVAM EDƏN VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN ORDUSU BÜTÜN DÜNYAYA ÖZ GÜCÜNÜ, QÜDRƏTİNİ GÖSTƏRDİ

Məhz bu uğurlu siyasətin nəticəsi olaraq artıq üç ildir ki, Silahlı Qüvvələr Gününü qalib xalq, güclü ordu kimi qeyd edirik. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığını nümayiş etdirərək bütün dünyaya öz gücünü, qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin qanı və canı bahasına azad edildi. Bu, Prezident İlham Əliyev tərəfindən son 21 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsidir.

Bəli, bu qələbə Prezident İlham Əliyevin "nəyi nə vaxt, necə etmək lazım olduğunu bilərək, "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsidir. Çünki dövlət başçımız iqtisadi sahədə əldə etdiyimiz gücü Ordumuzun müasir texnologiyalarla təchiz edilməsinə və peşəkarlığının artırılmasına yönəltdi. Hərbçilərin mənzil-məişət şəraiti yaxşılaşdırıldı, hərbçilərimiz beynəlxalq təlimlərə qatıldılar. Son 20 il ərzində Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə bəyan edirdi ki, Ermənistan Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinə ciddi səy göstərməsə, Azərbaycan torpaqlarını müharibə yolu ilə geri qaytaracaq. Və bunu da etdi. 2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "Dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktıdır. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil. Bəli, Prezident İlham Əliyevin nəyi necə və vaxt etmək lazım olduğunu çox yaxşı bildiyi siyasətin nəticəsi budur. Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir".

Bəli, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib, regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Və 2022-ci il dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik istiqamətləri üzrə 4 milyard 489 milyon 892 min 429 manat vəsait ayrılıb. 2022-ci ildə müdafiə qüvvələri istiqamətləri üzrə 2 milyard 153 milyon 165 min 727 manat, milli təhlükəsizlik istiqamətləri üzrə 285 milyon 501 min 146 manat, sərhəd xidməti istiqamətləri üzrə 441 milyon 585 min 091 manat, müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar istiqamətləri üzrə 4 milyon 119 min 118 manat, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər istiqamətləri üzrə 1 milyard 605 milyon 521 min 347 manat, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə 1 milyard 600 milyon 442 min 500 manat vəsaitin ayrıldı. Bu gün isə, 2023-cü ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri artırılıb. Belə ki, 2023-cü il dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə ayrılan vəsait 375 milyon 354 min 411 manat olacaq. Əvvəl bu, 364 milyon 236 min 911 manat təşkil edirdi.

Beləliklə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunmaq üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu.

Bir sözlə, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir. O, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi və bu zəfərlə yürütdüyü 20 illik - "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin siyasətinin doğru olduğunu Azərbaycana və beynəlxalq ictimaiyyətə sübut etdi. Və Qətiyyətli Lider, müzəffər ordu və yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır. Çünki bu uğurların, qazanılan zəfərlərin arxasında xalq-ordu birliyi dayanır. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

**RƏFİQƏ KAMALQIZI**





# Qəbələ Beynəlxalq Musiqi Festivalı: ünsiyyət və dostluq bayramı

***Azərbaycanın Qəbələ şəhərində 2009-cu ildən başlayaraq ənənəvi olaraq hər il yay aylarında keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı əsl bayram ovqatı yaradır. Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən ölkəmiz haqqında yüksək fikirlər formalaşdırır. Son illər keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycanın təməl prinsiplərinin sülh və humanizm olduğunu bir daha sübut edərək dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların nümayəndələrini bir araya toplayır.***



*Mehriban xanım Əliyeva: "XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı qonaqlarımızın yaddaşında və Azərbaycan musiqi mədəniyyəti tarixində mənalı səhifələrdən biri kimi qalacaqdır"*

Musiqiçilər açıq səma altında çıxış edərək dünya klassikasının ən gözəl nümunələrini ifa edirlər. İldən-ilə böyüyən tamaşaçı auditoriyası və ahəngdar musiqi keyfiyyəti ilə diqqəti çəkən festival dünyanın müxtəlif ölkəsindən olan musiqiçiləri birləşdirir. Bildiyimiz kimi, Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçirilib.

Əvvəlcə ölkəmizdə musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub. Məktubda Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının bütün iştirakçılarına və qonaqlarına ən xoş arzularını çatdırıb. Məktubda qeyd olunub ki, əsrlər boyu mədəniyyətlərarası dialoqun inkişafına öz töhfəsini verən Azərbaycan tarixən müxtəlif millətlərin mədəniyyət və incəsənətinin qarşılıqlı zənginləşməsinə, xalqlar arasında olan birliyin daha da gücləndirilməsinə səy göstərib: "Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, yaxın günlərdə baş tutmuş ənənəvi Beynəlxalq Muğam Festivalı kimi möhtəşəm tədbirlər bunun bariz nümunəsidir. Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramları mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün geniş imkanlar açır. Mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran belə layihələr bizim üçün çox dəyərlidir. Bu baxımdan, 2009-cu ildən etibarən təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalı da əvəzedilməz rola malikdir. Klassik musiqi vurğunu olan hər bir insanın səbirsizliklə gözlədiyi Qəbələ Beynəlxalq Musiqi Festivalı həm də yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik və tədqiqatların mübadiləsinə xidmət edir. Biz bu festivalı mədəniyyətlərarası dialoqun genişləndirilməsinə, xalqlararası dostluq münasibətlərinin daha da möhkəmlənməsinə verilən böyük bir töhfə kimi dəyərləndiririk. Əminəm ki, XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı qonaqlarımızın yaddaşında və Azərbaycan musiqi mədəniyyəti tarixində mənalı səhifələrdən biri kimi qalacaqdır". Bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyidir, həm də ölkəmizdə "Heydər Əliyev İli"dir. Məhz bu səbəbdən də XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.



## DÜNYA MUSİQİSİNƏ DƏYƏR VERƏN ODLAR DİYARI

Qəbələdə keçirilən musiqi festivalı ölkəmizin həm də mədəniyyətlərarası dialoqda önəmli körpü rolunu oynadığını sübuta yetirir. Festivalda iştirak etmək üçün ölkəmizə gələn qonaqların mənsub olduğu region və ölkələrin müxtəlifliyi də bu fikri təsdiq edir. Belə ki, Amerika və Avropa qitələrindən, Uzaq Şərq regionundan qatılan qonaqların təmsil etdikləri musiqi mədəniyyəti nümunələrinin bir arada, bir məkanda səslənməsi mədəniyyətlərarası dialoqun gerçəkləşməsinə xidmət edən mühüm mədəniyyət hadisəsidir. Təsadüfi deyil ki, festivalda iştirak etmək üçün ölkəmizə gələn qonaqlar da Qəbələ festivalının Qərblə Şərqi yaxınlaşdırdığını, mədəniyyətlərarası dialoqa töhfə verdiyini etiraf edirlər. Beləliklə, Azərbaycan bu gün mədəniyyət beşiyi olmaqla yanaşı, həm də dünya musiqisinə dəyər verən, onu zənginləşdirən bir diyar kimi tanınmaqdadır.

Azərbaycanın Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadənin bədii rəhbərliyi ilə təşkil olunan XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılışı "Viva Opera" adlı konsertlə başlayıb. Açılış konsertində Əməkdar artist Əyyub Quliyevin və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlər - Xalq artistləri Dinarə Əliyeva, Əvəz Abdullayev, Samir Cəfərov, Yusif Eyvazov və Əməkdar artist Səbinə Əsədova çıxış ediblər.

Budəfəki Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən dünyaşöhrətli musiqiçilər - ifaçı və dirijorlar, musiqi kollektivləri iştirak edirlər.Möhtəşəm musiqi bayramı olan Qəbələ Beynəlxalq Musiqi Festivalı əhali arasında gözəl musiqi zövqünün formalaşdırılmasına, dünyanın və Azərbaycanın musiqi ənənələrinin ölkəmizdə tanınmasına ənənəvi olaraq, böyük töhfədir.

***Zümrüd BAYRAMOVA***

# Uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsinə xüsusi diqqət var











***Gələcəyi gənclər müəyyən edir və bu baxımdan da cəmiyyətin gələcəyi məhz gənclərdən asılıdır. Elə buna görə də gənc nəslin düzgün tərbiyəsi hər zaman öz aktuallığını qoruyur. Uşaq və gənclərin fiziki, həmçinin mənəvi inkişafı daim diqqət mərkəzində olmalıdır. Cəmiyyət üçün savadlı, lazımlı vətəndaş olacaq uşaq və gənclərin yetişməsi gələcəyimizin etibarlı əllərdə olacağına təminat verir. Elə bu baxımdan da dövlətimiz uşaq və gənclərin fiziki, həmçinin mənəvi tərbiyəsinə, inkişafına xüsusi diqqət və qayğı göstərir.***

Ölkəmizdə bir-birinin ardınca yeni-yeni məktəblərin tikilməsinə və əsaslı təmirinə xüsusi yer ayrılması heç də təsadüfi deyil. Bütün bu işlər uşaq və gənclərin düzgün tərbiyə olunmasına diqqətin bariz nümunəsidir. Təkcə paytaxtda deyil, Respublikamızın digər şəhər və rayonlarında, həmçinin ucqar kəndlərdə belə məktəb binalarının yenidən inşa edilməsi, bir çox təhsil ocaqlarının yenidən əsaslı təmir edilməsi, ən müasir avadanlıqlarla təchiz olunması artıq ənənə halını alıb. Bu da əbəs yerə deyil və dövlətimizin təhsil ocaqlarına diqqət ayırmasının sanki ənənəyə çevrilməsi məhz gənc nəslin düzgün tərbiyə olunmasına hesablanıb. Cəmiyyətimiz, Azərbaycan cəmiyyəti görür və fərqindədir ki, ölkəmizdə təhsil müəssisələrinə, təlim-tərbiyə ocaqlarına xüsusi qayğı da diqqət var. Bu isə ölkə başçısının, cənab Prezident İlham Əliyevin rəhbərliyi, eləcə də tapşırıqları ilə reallaşdırılır və bu da o deməkdir ki, gənc nəslin, uşaq və gənclərin düzgün tərbiyəsi prioritet məsələ olaraq qəbul olunur. Bu istiqamətdə görülən işlər isə sözsüz ki, təkzib edilə bilməz.

Diqqətə çatdıraq ki, təkcə məktəb binalarının, təhsil ocaqlarının tikintisi və təmiri deyil, idman infrastrukturunun daim yenilənməsinin də hər birimiz şahidiyik. Respublikamızın müxtəlif rayonlarında, bölgölərində idman komplekslərinin salınması, ən ucqar kəndlərdə belə idman meydançalarının qurulması da hər birimizə bəllidir. Sözsüz ki, sadalanan idman komplekslərinin salınması uşaq və gənclərdə idmana olan marağın artmasına zəmin yaradır. Müasir standartlara cavab verən idman komplekslərinin inşası, stadionların qurulması gənclərin idman sahəsində uğurlar qazanması üçün əvəzsizdir. İdmana marağı olan, idmanla məşğul olan gənclərdə isə sağlam ruhun olacağına şübhə edilə bilməz, çünki zərb məsəldə deyildiyi kimi, “sağlam bədəndə sağlam ruh olar”. Sağlam ruhlu gənclərimizin olması, uşaq və gənclərin sağlam ruhda yetişməsi isə onların layiqli vətəndaş olmaları üçün önəmli, vacib şərtdir.

Xüsusilə qeyd etmək lazımdır ki, uşaq və gənclərin sağlam böyüməsində, fiziki, psixooloji, mənəvi cəhətdən sağlam olmasında ailə tərbiyəsinin rolu əvəzsizdir. Uşaq və gənclərin düzgün tərbiyə alması ilk növbədə ailədən başlayır. Bu baxımdan da valideynlərin öz övladlarına düzgün tərbiyə verməsi xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, ilk növbədə valideynlər öz uşaqlarının tərbiyəsinə, fiziki və mənəvi inkişafına, sağlam böyüməsinə görə məsuliyyət daşıdıqlarını dərk etməlidirlər. Hətta deyərdik ki, buna görə cavabdeh olmalıdırlar. Valideynlər bilməlidirlər ki, övladlarının layiqli vətəndaş olmaları, cəmiyyətdə özlərinə layiqli yer tutmaları üçün fiziki və mənəvi cəhərdən sağlam böyümələri gərəkir və bu yöndə məsuliyyət daşıyan da onlar özləridirlər.

Məsələ burasındadır ki, təkcə ailə tərbiyəsi uşaq və gənclərin yetişməsində rol oynamır. Hansı ailədə böyüməsindən asılı olmayaraq uşaq və gənclərin tərbiyəsində təhsil ocaqlarının da xüsusi rolu olur. Uşaqlar cəmiyyətlə ilk dəfə məktəbə getdikləri zaman tanış olmuş olurlar və inların cəmiyyətlə təması məhz məktəb illərindən başlayır. Buna görə də uşaq və gənclərin təhsil ocaqlarında tərbiyəsi də xüsusi əhəmiyyət kəsb edir. Orta məktəblərdə vətənpərvərlik ruhunda böyüyən uşaqlar bunun ardınca ali təhsil ocaqlarında da eyni şəkildə tərbiyə almalıdırlar. Eyni şəkildə tərbiyə almalıdırlar ki, vətənimiz, dövlətimiz üçün layiqli vətəndaş olsunlar. Ali təhsil ocaqlarında layiqli vətəndaş olmaları gənclərimizə aşılanmalıdır. Onların təlim-tərbiyəsinə xüsusi diqqət ayrılmalıdır, çünki bu məsuliyyət bir tərəfdən də pedaqoqların, müəllimlərin üzərinə düşür. Belə bir məsuliyyətli peşə sahiblərinə də öz növbəsində cəmiyyətimiz xüsusi hörmətlə yanaşmalı, müəllim əməyi layiqincə qiymətləndirilməlidir. Çünki pedoqoji kollektiv uşaq və gənclərin tərbiyəsinə görə cavabdeh olmaqla böyük hörmət və ehtirama layiqdir.

Elm, bilik, savad, fiziki tərbiyə ilə yanaşı sözsüz ki, gənclərin normal xarakterdə yetişməsində vətəndaşlıq, vətənə məhəbbət hissinin tərbiyəsi də önəmli yer tutur. Milli maraqlarımızın, xalqımıza məxsus olanların qorunması, suverenliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün müdafiəsi hər bir azərbaycanlının vətəndaşlıq borcudur və azərbaycançılıq ideyası hər bir gəncimiz üçün əsas ideya olaraq aşılanmalıdır. Vətəni sevmək, vətənə sədaqətli olmaq, vətən uğrunda bacardığını əsirgəməmək əsl vətəndaş olmaq deməkdir və bütün bunlar azərbaycançılıq ideyasının əsasını təşkil edir, hansıki hər bir azərbaycanlı gənc məhz bu ruhda yetişməlidir. Bu ruhda yetişməlidir ki, suverenliyimiz, müstəqilliyimiz, ərazi bütövlüyümüz etibarlı əllərdə olsun. Heç şübhəsiz ki, Müzəffər Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin rəhbərliyi, siyasi iradəsi, qətiyyəti, xalqımızın birliyi, Azərbaycan Ordusunun şücaəti, rəşadəti ilə əldə etdiyimiz qələbə, qazandığımız Zəfər də məhz bunun sayəsində, vətəndaşlarımızın vətəni sevməsi, vətən uğrunda canını, qanını belə əsirgəməməsi, Azərbaycanımız uğrunda birləşməsi, birliyi, həmrəyliyi, azərbaycançılıq ideyasının olması ilə reallaşdı. 44 günlük müharibənin məntiqi nəticəsi, əldə etdiyimiz Zəfər bizim gəncliyimizin necə vətənpərvər olduğunu dünyaya göstərdi və eləcə də Azərbaycan xalqı, ölkəmizin gəncləri vətəni necə sevmək lazım olduğu barədə düşmənə də dərs verdi. Hər kəs gördü və əmin oldu ki, Azərbaycanın oğul və qızları vətənə məhəbbət ruhundadır və etiraf etmək lazımdır ki, bu ruh uşaq və gənclərin düzgün tərbiyə almasından qaynaqlanır.

Vətən oğullarının, gənclərimizin öz torpaqları, ərazi bütövlüyümüz uğrunda hansı şücaətlə, hansı rəşadətlə döyüşdüyü, Azərbaycanın əzəli və əbədi torpaqları olan və 30 ilə yaxın düşmən əsarətində, işğal altında saxlanılan Qarabağın, eləcə də ətraf ərazilərinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə müşahidə edilən qəhrəmanlıqlar bizim gənclərimizin hansı ruhda tərbiyə aldığını bir daha ortaya qoydu. Bir daha bəlli oldu ki, Azərbaycan vətəndaşlarının, ölkəmizin gənclərinin fiziki və mənəvi inkişafı lazımınca təmin olunub, bu istiqamətdə düzgün iş aparılıb.

Bəli, 44 günlük müharibədə gənclərimizin vətən uğrunda canını, qanını belə əsirgəməməsi, vətən uğrunda, hər qarış torpaqlarımız uğrunda, xalqımıza məxsus olan dəyərlər naminə mübarizə aparması, nəticədə də əldə etdiyimiz qələbə bir daha təsdiq etdi ki, müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün qorunması, ölkəmizin təhlükəsizliyinin təmin olunması üçün gənc nəslin tərbiyəsinin, fiziki və mənəvi tərbiyənin rolu olduqca böyükdür. Deməli, bundan sonra da uşaq və gənclərin tərbiyəsin, fiziki və mənəvi tərbiyəsi prioritet məsələ olaraq qəbul olunmalıdır ki, müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün, ölkəmizin təhlükəsizliyinin təmin olunmasının etibarlı əllərdə olacağına əmin olaq. Elə baxımdan da ölkəmizdə uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsinə xüsusi diqqət var və dövlətimiz üçün də prioritet məsələ hesab olunur.

***İnam Hacıyev***

# Broyler təhlükəsi: toyuq və yumurta nəyə deyilir?



***Broyler məshulları ilə bağlı narahatlıq bütün dünyada getdikcə güclənir. Son elmi araşdırmalar bu məhsulların sağlamlığa ciddi zərər vurduğunu sübut edir. Bu məhsulların, sadəcə, bir üstünlüyü var- broyler toyuğu və yumurtası ucuz olduğundan əhalinin aztəminatlı hissəsi üçün əlverişlidir. Bu məhsulları çox istehlak edənlər pula qənaət etdiklərini düşünürlər. Lakin sağlamlıq puldan da, hər şeydən də üstündür. Bu gün qənaət edilən pullar tezliklə min dəfələrlə daha çox geri qayıdacaq, sağlamlığın qaytarılması üçün. Bir çox hallarda isə bu heç bir pul müqabilində mümkün olmur.***

Broylerlə bağlı bəzi məqamlara aydınlıq gətirək. Bu toyuqlar dəhşətli şəraitdə saxlanır, Günəş, işıq görmür, hərəkət etmirlər, dar qəfəsdə, sanki badımcan yetişdirilir. Gündə 2 dəfə süni işıqlandırmanı tədricən artırıb-azaldır və toyuqları aldadırlar ki, elə bilsinlər 2 gün keçib, 2 dəfə yumurtlasın.

Bu toyuqlar kimyəvi dərmanlar və hormonal tərkibli süni yemlərlə böyüdülür və artıq onun ətində, yumurtasında təbii heç nə qalmır. Bu toyuqlara verilən yemlər genetik modifikasiya olunmuş yemlərdir və həmin yemə də insan orqanizmi üçün olduqca zərərli olan kimyəvi maddə- dioksin də vurulur ki, bu da kəsildikdən uzun müddət sonra xarab olmamasını təmin edir.

Daha bir fakt ondan ibarətdir ki, bütün dünyada broyler fabrikləri 1 ton yemə Avropadan alınan 1 kq Premix hormonu qarışdırırlar. Bu Premiksin içində antibiotiklər var ki, toyuqlar xəstəliklərə tutulmasınlar. Bu antibiotiklər verilən quşlarda bağırsaq florası inkişaf etmir və bu toyuqda sürətli və saxta kütlə yaradır.







Buraya əlavə ostrogen hormonu qarışdırılıb ki, gündə 2 dəfə yumurta versin. Bu ostrogen çox təhlükəlidir, hətta ana bətnindəki oğlan uşağının cinsi orqanlarını inkişafdan saxlayacaq, gələcəkdə qadın xüsusiyyətlərinə sahib olmasına səbəb olacaq qədər dəhşətli təsir göstərir. Xüsusən də, qadın hormonlarının sayını artırması təhlükəlidir. Məlum olduğu kimi kişilərdə kişi hormonları ilə yanaşı qadın hormanları da var. Bu hormonların qızıl nisbəti var, o dəyişəndə, yəni kişilərdə qadın hormonları süni olaraq çoxalanda nəticəsi necə olur, artıq bunu deməyə ehtiyac da yoxdur, hamıya aydındır. Son dövrlərdə cinsi azlıqların sayının artmasında hormonal qidaların payı çox yüksəkdir. Qadınlarda da hormon balansı korlandıqda ciddi fəsadlar verir. Bundan başqa, Premiksə lifekorotin adlı maddə qatılır ki, yumurtanın sarısı daha sarı olsun təbiiyə oxşasın. Hətta, yumurta özü tünd rəngdə olur və təbiilik təəssürat yaradır.

Bu quşlara öz peyinlərini yedirdirlər ki, tez kökəlsinlər. Həmçinin, çoxsaylı güclü antobiotiklər qəbul etdirilir ki, xəstəliklərə davamlı olsun. Bir sözlə bu toyuq və onun yumurtasında artıq təbii olan heç nə yoxdur. Tam süni kimyəvi məhsuldur.

Məlum olduğu kimi, xərçəng hüceyrə səviyyəsində ciddi dəyişilik, daha doğrusu hüceyrələrin öz funksiyasını yerinə yetirə bilməməsi nəticəsində yaranır. Bu və ya bu kimi süni kimyəvi qidalar isə heceyrə səviyyəsində dəyişilik aparır. Orqanizmi qida olaraq yalnız təbii məhsul qəbul etməlidir. Hər hansı bir süni məhsul zərərlidir.

Satışdakı toyuqların çoxu şişmiş olur. Bu hormonla dərmanların birbaşa göstəricisidir. Arıq toyuqlar isə ölmüş toyuqlardır ki, dərhal paketlənib satışa göndərilir və kənd toyuğu adı ilə satılır. Hətta bunların ayağına sarı rəngli dərman vururlar ki, guya yağlı kənd toyuğudur.

Artıq bu istehsalçılar və satıcılar əhalini lap axmaq yerinə qoyublar. Mağazalarda broyler toyuğunun üstünə "kənd toyuğu", yumurtasının üstünə isə "kənd yumurtası" yazıb satışa qoyublar. Özü də bu toyuq 5 manata, yumurta da 20 qəpiyə satılır. Halbuki, bazarda əsil kənd toyuğu 10 manat civarında, kənd yumurtası isə 30 qəpikdir.

Müxtəlif ölkələrdə aparılmış elmi təcrübələr dəfələrlə göstərib ki, broyler məhsulları sağlamlıq üçün təhlükəlidir. Dünyadakı müxtəlif alimlər səhiyyə təşilatları bu məhsullara qarşı kampaniya aparır.

ABŞ-da aparılan axırıncı elmi tədqiqatda sübut edilib ki, gündə 2 və daha çox broyler yumurtası yeyənlərdə yeməyən və ya çox az yeyənlərə nisbətən 2 dəfə çox prostat xərçəngi yaranır. Rusiyada da aparılan araşdırmalarda isə, broyler məhsullarının artıq çəki yaratması, hormonal balansı pozması, onkoloji xəstəliklərə səbəb olması təsdiq olundu. Azərbaycanda da broyler texnologiyası bütün dünyadakı kimidir, deməli bu təhlükə bizə də aiddir.

Amma kənd yumurtası da deyib hər üstü palçıqlanan və tük yapışdırılan, 15-20 qəpik civarında satılan broyler yumurtalarını da almayın. Deməliyəm ki, bir çox kənd yumurtaları belə broyler yumurtasından fərqli deyil. Hətta, artıq kəndlərdə də bir çoxları toyuqları süni yemlərlə böyüdür, bu yemlərin tərkibində betakorotindən , ostrogendən tutmuş tumuş hər cür təhlükəli kimyəvi maddə var.

Transmilli şirkətlər qlobal qida terorru aparırlar. Quş qripini nəyə görə törətdilər? Ölkələrdə kənd quşlarını kütləvi məhv etdilər. Qlobal broyler sistemi isə bunların əlindədir.

Bu vəziyyət təkcə quşçuluqda deyil, əksər sahələrdə belədir. Bitkilərin çoxu genetik modifikasiyaya məruz qoyulub və təbii halından çıxarılıb. Son illərdə Prezidentin sərəncamları əsasında toxumçuluq təsərrüfatları yaradılıb, yerli toxum növləri qorunur, çoxaldılır. Bunu heyvandarlıqda da, quşçuluqda da etməliyik. Yerli sort heyvan və quşların kəndlərdə artmasını təşviq edə bilərik. Yerli kənd məhsulları ilə əhalini tam təmin etmək, broyler məhsullarını isə ixrac etmək olar. Nəticədə kəndlərdə məşğulluq və bazarlarda təbii məhsulların bolluğu yaranar.

Dediyim problemlər bütün ölkələrə aiddir. Bir çox ölkələr artıq müəyyən tədbirlər görürlər. Biz də özümüzü qorumalıyıq. Xalqımızın genefondunu qorumalıyıq və sağlam cəmiyyət formalaşdırmalıyıq. Hər nə qədər qlobal təzyiq güclü olsa da, hələ ki müqavimət və müdafiə imkanları tükənməyib.

## Bəs çıxış yolu varmı? Varsa nədir?

Sadə və asan yol var. Yalnız həqiqi kənd toyuğu istehlak edəcəksiniz. Gözünüzün qabağında kəsilmiş rəngli toyuqlar. Sümükləri bərk olur, gec bişir, qazana az yağ atsan belə sousu çox yağlı olur, yeyəndə şirəsi adamın əlinə, ağzına yapışır, çətin yuyulur. Bəli bahadır, broyler toyuğundan 2 dəfə bahadır. Amma hər neçədirsə bu qidadır. Ucuzdur deyə qida olmayan şeyi yemək olmaz. Tutaq ki, un 50 qəpikdir, pulunuz yoxdursa 25 qəpiyə əhəng alıb yeməli deyilsiniz ki? Pulunuz yoxdursa yeməyin, gedin yarpaq yeyin, ot yeyin amma zəhərli məhsulları yeməyin. Ya da 2 tikə murdar qida yeməkdənsə 1 tikə təmiz qida yemək yaxşıdır. 2 broyler toyuğunun yerinə 1 ədəd kənd toyuğu alın. Az yeyin, təmiz yeyin.

ARAŞDIRMA

*Elçin Bayramlı*
*Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, araşdırmaçı jurnalist*

# Vasitəçi tərəfsiz və ədalətli olmalıdır




## PREZİDENT İLHAM ƏLİYEV: "Minsk qrupu artıq "pensiyaya" çıxıb və faktiki olaraq mövcud deyil. Ola bilsin kağız üzərində mövcuddur"

***Bu fikirləri bu il fevralın 18-də Münhendə keçirilən «Dağları aşmaq. Cənubi Qafqazda təhlükəsizliyin qurulması» mövzusunda plenar iclasda çıxışı zamanı deyib. Və Minsk qrupu haqqında danışmağın lüzumsuz olduğunu vurğulayıb.***




### MİNSK QRUPUNUN KEÇMİŞ MİSSİYASINI AZƏRBAYCAN TƏKBAŞINA REALLAŞDIRIB

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə təsis edilən ATƏT-in Minsk Qrupu yarandığı gündən münaqişənin həlli yolunda heç bir səmərəli təşəbbüs göstərmədi. Azərbaycan bu 30 illər ərzində ATƏT-in Minsk Qrupunun həmsədrlərindən ədalətli mövqe, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət gözlədi. Amma bunların nəinki heç biri olmadı, hətta Ermənistana BMT qətnamələrinin yerinə yetirilməsi ilə bağlı azacıq da olsa, beynəlxalq təzyiq belə göstərilmədi. Həmsədrlər Ermənistana təzyiq göstərmək, beynəlxalq hüquqdan irəli gələn müvafiq sanksiya rejimlərini tətbiq etmək əvəzinə, faktiki olaraq Ermənistanın işğalçılıq siyasətinə göz yumdular. ATƏT-in Minsk qrupu 30 il ərzində münaqişənin hərbi həll yolunu inkar edərək Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaradılmış status-kvonu Azərbaycana qəbul etdirməyə və münaqişəni diplomatik-siyasi yollarla nizamlamağa uğursuz cəhdlər etmişdi.

Nəticədə, etimadı itirən bu qurumun fəaliyyətsizliyi problemin sülh yolu ilə deyil, hərbi əməliyyatlarla həllinə gətirib çıxardı. Və 44 günlük Vətən müharibəsində ərazilərimizi işğaldan azad olunması uğrunda apardığımız mübarizə bütün beynəlxalq qanunlara görə ədalətli olmaqla, dünya erməniliyinə, erməni təəssübkeşliyinə böyük zərbə oldu. Prezident İlham Əliyev bu qələbənin müəllifi kimi torpaqlarımızı işğaldan məhz «Dəmir yumruq» siyasəti yolu ilə azad edərək Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, Prezident İlham Əliyevin qərarlarını yerinə yetirməklə 30 ilə yaxın idi ki, təhdid mənbəyi olan münaqişəyə 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan, Prezident İlham Əliyevin «Dəmir yumruq» siyasəti ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayaraq 44 gün ərzində işğal altındakı torpaqlarımızı azad etdi, ərazi bütövlüyünü təmin etdi.

### "MİNSK QRUPU 28 İL FƏALİYYƏT GÖSTƏRİB. NƏTİCƏ GÖZ QABAĞINDADIR - SIFIR"

Azərbaycan Prezidenti çıxışlarında da bildirib ki, münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupuna verilən mandat de-yure qüvvədə qalsa da, de-fakto qüvvədən düşmüş sayıla bilər: «Minsk Qrupu 28 il fəaliyyət göstərib və "nəticəsi göz qabağındadır – sıfır". « Biz bu münaqişəni özümüz həll etdik. Minsk Qrupu ikinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır.

Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib. Minsk Qrupuna münaqişənin həlli üçün verilmiş mandat faktiki olaraq de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər". Prezident İlham Əliyev İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirmişdir ki, ATƏT-in Minsk Qruppu fəaliyyətə başladığı andan hər zaman Azərbaycanın əleyhinə olub: "Yəni onların əvvəldən fəaliyyəti, mövqeyi bu gün də daxil olmaqla hər zaman bizim əleyhimizə olub. Hesab edirəm ki, gələcəkdə də belə olacaq, heç bir dəyişiklik edilməyəcək. Buna görə Ermənistanla bizim aramızda təxribatlar, gərginliklər, anlaşmazlıqlar, ümumiyyətlə, hər hansı bir problemlər baş verdikdə Azərbaycan bu məsələləri özü yoluna qoyur, özü də həll edir. Bizə ATƏT-in Minsk qrupu kimi vasitəçi lazım deyil. Çünki onların mövqeyi ortadadır. Fransanın bu günlərdə özlərini dövlət adamları kimi adlandıran separatçı qurumun iki cinayətkarını yüksək səviyyədə qəbul etməsi, onlarla görüşlər keçirməsi, bəyanatların verilməsi, yeni bu Fransanın mövqeyi deyilmi? Təbii ki, mövqeyidir. Bu 44 günlük müharibə dövründə Fransa və onun prezidenti Emmanuel Makron ermənilərdən çox ermənilik edirdi. Bu gün də həmin mövqeyi davam etdirirlər. Ona görə də bizə Fransa kimi həmsədr lazım deyil. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupu kimi həmsədrlik edən qurum lazım deyil. Biz torpaqlarımızı işğaldan azad etmişik, qalan digər problemlərimizi də tədricən həll edəcəyik". Bəli, dövlət başçısı müsahibələrində dəfələrlə vurğulayıb ki, vasitəçi tərəfsiz və ədalətli olmalıdır: "Vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar".

### ARTIQ MÜNAQİŞƏ TARİXDƏ QALIBDL İNDİ İSƏ YENİ DÖVR BAŞLAYIB – QURUCULUQ DÖVRÜ, BƏRPA DÖVRÜ

Prezident İlham Əliyev BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən dövlət başçımız bir daha Ermənistanla aparılan əvvəlki danışıqlardan söz açaraq dedi ki, BMT TŞ-nin daimi üzvü olan beş ölkədən üçünün ATƏT-in Minsk qrupuna həmsədrlik etməsinə baxmayaraq, 28 il ərzində lazımi imkanlar çərçivəsində heç bir əməli iş görülmədi: «Odur ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın yox, onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Çünki Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, Minsk qrupunun həmsədrləri Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə məcbur etsəydi, müharibə baş verməzdi. Lakin Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan bunu həll edib və 30 ilə yaxın kağız üzərində olan qətnamələri yerinə yetirib və artıq münaqişə tarixdə qalıbdı. İndi isə yeni dövr başlayıb – quruculuq dövrü, bərpa dövrü". Bəli, artıq müharibə bitib, münaqişə həll olunub, bu baş verənlər haqda danışılası heç bir məsələ qalmayıb. Artıq Azərbaycanın həyatında yeni dövr - quruculuq, torpaqlarımızın bərpası dövrü başlanıb. 30 ilə yaxın dövrün işğalının Ermənistana nə verdiyini yalnız və yalnız bir sözlə ifadə edə bilərik, uğursuzluq. Ermənistan Azərbaycanla eyni vaxtda müstəqillik qazansa da, işğalçı dövlət formal müstəqilliyi ilə diqqət çəkib. Asılı vəziyyətdə yaşayan bir ölkənin güclü iqtisadiyyatdan, ordudan danışması qeyri-mümkündür. İkinci Qarabağ müharibəsində Zəfərimiz Azərbaycanın qarşısında böyük imkanlar açıb. Və bu gün Ermənistanın müdafiəsinə qalxan, erməni lobbisinin əlində alətə çevrilən dövlətlər və siyasi mərkəzlər yaxşı anlayırlar ki, status məsələsini ortaya atmaqla Azərbaycana təsir edə bilməzləri qeyri-mümkündür.



### METYU BRAYZA: «Aİ ATƏT-İN MİNSK QRUPUNUN DE-FAKTO "ÖLÜMÜ"NDƏN SONRA YARANMIŞ BOŞLUĞU DOLDURMAĞA ÇALIŞIR»

"İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev açıq şəkildə göstərdi ki, Ermənistanla ölkəniz arasında münasibətlərin normallaşmasına imkan verəcək sülh müqaviləsinin bağlanmasına tərəfdardır". Bunu ABŞ-ın Atlantik Şurasının böyük elmi işçisi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, beynəlxalq ekspert Metyu Brayza Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və Aİ Şurasının rəhbəri Şarl Mişel arasında Brüsseldə baş tutmuş görüşü şərh edərkən bildirib.Onun sözlərinə görə, Ermənistanın Baş naziri Nikol Paşinyan da bu istiqamətdə hərəkət etmək istəsə də, bir vaxtlar işğal altında olan Azərbaycan ərazilərini geri qaytarmaq kimi alçatmaz arzuyla yaşayan müxalifət səbəbindən bunu edə bilmədi: "Onların bu arzusu da öldü", – o əlavə edib.O həmçinin bildirib ki, Avropa Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla üçtərəfli görüşünün nəticələrinə əsasən səsləndirdiyi bəyanat həqiqətən yaxşı əlamətdir və ölkələrin sülh müqaviləsinin imzalanmasına yaxınlaşdıqlarından xəbər verir. Belə ki, bəyanatda xarici işlər nazirlərinə bütün zəruri məsələləri həll edəcək sülh müqaviləsinin hazırlanması üzərində işləməyin tapşırıldığı bildirilir.Brayza bəyanatda ATƏT-in Minsk qrupunun bir dəfə də olsun xatırlanmadığını, Brüssel görüşünün Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə yeni danışıqlar formatının qurulması üçün zəmin yaratdığını vurğulayıb: "Bəyanatda ATƏT-in Minsk qrupunun xatırlanmaması Aİ-nin ATƏT-in Minsk qrupunun de-fakto "ölümü"ndən sonra yaranmış boşluğu doldurmağa çalışdığından xəbər verir".

Göründüyü kimi, artıq Minsk qrupu və onun həmsədrlərinin addımları məşhur el məsəlimizdə deyildiyi kimi, "öz cəzandır, çək!". Bizim artıq nə danışıqlara, nə Minsk Qrupuna, nə də həmsədrlərə ehtiyacımız var. Bizim öz tənzimləyicimiz – "dəmir yumruğumuz" var. Necə ki, 44 gündə də bu yumruq öz tarixi missiyasını layiqincə yerinə yetirdi... Ədalət Zəfər çaldı. Ermənistan da, onun yanında duranlar da layiqli cavablarını aldılar. Prezident İlham Əliyevin sözləri ilə desək: "Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!...Bu, reallıqdır..."Bir sözlə, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Minsk Qrupu 28 il fəaliyyət göstərib. Nəticə göz qabağındadır – sıfır».

***RƏFİQƏ KAMALQIZI***





*Bütün tərəqqipərvər xalqlara məlumdur ki, erməni toplumu insanlığın düşmənidir. Bunu onlar yerləşdikləri ərazilərdə, yaşdıqları torpaqlarda xalqlara qarşı törətdikləri talançılıqlarla, soyqırımı aktları ilə qazanıblar. Bu baxımdan demokratik düşüncəli dünya xalqları ermənilərə qarşı nifrət hissi bəsləyirlər. Elə bir tanınmış tarixi şəxsiyyət yoxdur ki, erməniləri pisləməsinlər, onlar haqqında tənqidi ifadələr səsləndirməsinlər. Tarixin müxtəlif dönəmlərində köçəri, quldur, yolkəsən, oğru formasında həyat tərzi keçirmiş ermənilər sonradan müxtəlif güclərin dəstəyi və himayəsi ilə müəyyən ərazilərdə, əsasən də Azərbaycanın bölgələrində yerləşdirilmişlər.*

# Ermənilər gəldikləri yerlərə köçürülməlidir



Lakin bu köçəri toplum özlərinə yer əldə edib möhkəmləndikdən sonra minlərlə azərbaycanlını qətlə yetirib, evlərini dağıtmışlar. Faktlara və sənədlərə istinadən demək olar ki, son 2 əsr ərzində 2 milyondan çox azərbaycanlı erməni vəhşiliyinin qurbanı olub. 1905-1906-cı illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Gəncədə, Şamaxıda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Muğanda, Qarabağda, və digər tarixi torpaqlarımızda dinc əhali ermənilər tərəfində qətliamlara məruz qalıblar. Nəticədə insanlar min illər boyu yaşadıqları ərazilərdən qaçqın və məcburi köçkünə çevrilmişlər.

## Qərbi Azərbaycan əraziləri mübahisəsiz və müzakirəsiz azərbaycanlılara məxsusdur

Ermənilərin hazırda özlərinin dövləti kimi dünyaya təqdim etməyə çalışdıqları ərazilər mübahisəsiz və müzakirəsiz azərbaycanlılara məxsusdur. Qərbi Azərbaycanda millətimizin keçmişi var, böyük bir irsi cəmləşib. Burada mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi qalalar, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir və hər daşında, qayasında, tarixi nümunələrində azərbaycanlıların izləri var. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Camə məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Erməni vandalları bu tarixi abidələrin əksəriyyətini dağıdıb, yer üzündən silmişlər. Görünən ondan ibarətdir ki, ermənilər yerləşdikləri hazırkı ərazilərdə tam şəkildə məskunlaşa bilmirlər. Hər məqamda yaşadıqları torpaqları tərk etməyə can atırlar. Hesablamalar görə, hər il minlərlə erməni ulu əcdadlarının quldurluq etdikləri ərazilərə gedirlər. Ekspertlərin qənaətinə görə, proseslər belə davam edərsə, yaxın 10-15 il ərzində indiki Ermənistan ərazisində erməni qalmayacaq. Bu isə o deməkdir ki, azərbaycanlılar tədricən doğma torpaqlarına qayıdacaqlar. Nəzərə almaq lazımdır ki, hazırda 44 günlük Vətən Müharibəsində Azərbaycanın əldə etdiyi parlaq hərbi qələbədən sonra Ermənistan ölkəmizin bir sıra şərtlərini qəbul etməyə başlayıb. O cümlədən Paşinyan rejimi azərbaycanlıların İrəvana, Gorusa, Qafana və digər ərazilərə qayıdıb, məskunlaşmasına razılıq verib. Təbii ki, sülh müqaviləsi imzanacağı təqdirdə, soydaşlarımız tarixi vətənlərinə qayıdacaqlar. Qeyd etmək lazımdır ki, iyirminci əsrin əvvəllərində xaricdən köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirilmişdir. Beləliklə,İrəvan əyalətində 4559ailə (23588 nəfər), Naxşıvan ətrafında 2137 ailə (10652 nəfər), Ordubad dairəsində 250 ailə (1340 nəfər) yerləşdirildi. Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü.

## Ermənilər Azərbaycan torpaqlarına məqsəli şəkildə köçürülmüşlər

Rusiyalı təqiqatçısı N.Smirnov hazırkı fars molla rejiminin meydan suladıqları ərazilərdən 90 min erməninin köçürülərək Azərbaycan ərazilərində məskunlaşdırıldığını yazır.Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə yeni vətən yaratmaq məqsədi ilə köçürülmüşdü.Bu işləri həyata keçirməkdə xüsusi canfəşanlıq göstərən hərbçilər və din xadimləri rus çarizmi tərəfindən mükafatlandırılırdılar.İkinci Rusiya-İran müharibəsində qələbə çalan rus qoşunları 1828-ci il iyunun 14-də Paskeviçin komandanlığı altında Gümrü yaxınlığında 12 minlik qoşunla Arpaçaydan Şərqi Anadoluya hücuma başladı.İyunun 23-də Qars qalası işğal edildi.Rus qoşunları iyunun 24-də Axalkalakini avqustun 15-də Aıskanı,22-də Ərdahanı,28-də isə Bəyazidi işğal etdilər.1829-cu ilin yazında müharibənin yenidən alovlanması nəticəsində rus qoşunları Ərzurumu, daha sonra Muşu, Oltunu və Bayburtu işğal etdilər.İrəvan xanlığından öz ata-baba yurdlarından didərgin salınan azərbaycanlılar Şərqi Anadoluda sığınacaq tapmışdılar.Rus qoşunlarının Şərqi Anadoluya hücumları zamanı qırğınlara və yenidən bu ərazidən köçkün halına düşməyə düçar olan yenə də azərbaycanlılar idi.Onlar bu dəfə də, əsasən, Türkiyənin içərilərinə köçməyə məcbur oldular.1829-cu ilin avqustunda rus qoşunları Balkan ətrafında İstanbula irəliləyərkən II Sultan Mahmud Rusiya dövlətinə barışıq təklif etdi.

Bu addım 1829-cu il sentyabrın 2-də Ədirnə müqaviləsinin bağlanması ilə nəticələndi. Axalkələk qalası və Axıska şəhəri Rusiyaya birləşdirildi.Ruslar tərəfindən işğal edilmiş Qars,Trabzon,Bəyazid və Ərzurum paşalıqları isə Türkiyəyə qaytarıldı.Ədirnə sülhünün 13-cü maddəsinə əsasən,Türkiyənin işğal olunmuş torpaqlarındakı ermənilərə 18 ay ərzində daşınan əmlakları ilə bərabər Rusiya tabeliyinə keçmək hüququ verilmişdir.Türkiyədə yaşayan erməniləri yenicə işğal olunmuş Azərbaycan ərazilərinə köçürmək, həmçinin Türkiyə ilə sərhəd boyu ərazilərdə də ermənilərin say üstünlüyünü təmin etmək məqsədilə 1829-cu il oktyabrın 10-da Paskeviç rus imperatoru I Nikolaya raport yazıb Ərzurumda və Qarsda yaşayan ermənilərdən 10 min nəfərin Gürcüstanda və " erməni vilayətində" yerləşdirilməsinə icazə istədi.1829-cu il noyabrın 18-də hərbi nazir Çernişev Paskeviçə çar I Nikolayın onun təklifini bəyəndiyini bildirdi. Türkiyənin Qars və onun ətrafında köçürülən ermənilər yaşadıqları ərazilərin iqliminə uyğun olaraq Ələyəz(Alagöz) dağı ətrafındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi.Rus generalı-mayoru Bereman Qarsdan Gümrüyə yola salınan 400 erməni ailəsinə sənəd təqdim etdiyini bildirirdi. İrəvan yaxınlığında Sərdərabad qalasında olan 270 ev həmin vaxt ermənilər tərəfindən zəbt edilmişdi.Bir qədər keçdikdən sonra M.Vladkin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazırdı: İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb,1828-1829-cu illər müharibəsindən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər. 1834-cü ilin kameral təsvirinə görə,bütövlükdə İrəvan əyalətində 22336 ailə var idi ki, bunun da 65300 nəfərini kişi cinsi təşkil edirdi. Bunların 29690 nəfəri azərbaycanlılar,10350 nəfəri əvvəllər köşürülmüş ermənilər və 24255 nəfəri İran və Türkiyədən yenicə köçürülən yezidi kürdləri, az qismi isə boşa adlanan qaraçılardan ibarət idi. 1832-ci ilin siyahıya alınmasına görə, İrəvan vilayətindəki kəndlərin 463-də müsəlmanlar (Azərbaycan türkləri), 98-də ermənilər, 63-də isə azərbaycanlılar və ermənilər qarışıq yaşayırdılar.

Beləliklə, erməni köçkünlər boşaldılmış 126 azərbaycanlı kəndində, azərbaycanlılar yaşadığı 70 kənddə, 22 qarışıq və 47 erməni kəndində məskunlaşmışdı. 1840-cı ildə erməni vilayəti ləvğ edildi, əvəzində İrəvan qəzası yaradıldı. N.Şavrov yazırdı ki, rəsmi köçürülən 124 min nəfər erməni ilə yanaşı,qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdu və ümumiyyətlə, köçürülənlərin sayı 200 min nəfərdən xeyli artıqdı. XIX əsrin 90-cı illərində Türkiyə dövlətində baş verən erməni qiyamlarının yatırılmasından sonra daha 400 minə yaxın erməni yenə də Cənubi Qafqaza –Azərbaycan torpaqlarına köçdü.N.Şavrov qeyd edirdi ki, XIX əsrin əvvəlində Cənubi Qafqazda yaşayan 1,3 milyon ermənilərin bir milyondan çoxu yerli əhali deyil,onları bura biz köçürüb gətirmişik.Beləliklə, faktlar və bu günümüzə qədər müxtəlif dövlət qurumlarında saxlanılan sənədlərə əsasən demək olar ki, ermənilər məqsədli şəkildə Azərbaycan əraziləlinə köçürülmüşlər. Böyük güclər bu yolla azərbaycanlıları sıxışdırmaq, yeni bir erməni dövləti yaratmağa ümid bəsləmişlər. Lakin görünən ondan ibarətdir ki, artıq erməni dövləti süquta uğrayır, həm də ermənilər gəldikləri yerlərə qayıdırlar.

**İ.ƏLİYEV**



# Ankara-Pekin görüşündə pik nöqtə



***Çoxdan gözlənilən görüş baş tutub. Qin Qanqın gözlənilmədən istefa verməsindən sonra Çin Xalq Respublikasının xarici işlər naziri vəzifəsinə yeni təyin olunan Vanq Yi ilk səfərini Türkiyəyə edib. Ankarada Prezident Rəcəb Tayyib Ərdoğan və Türkiyənin xarici işlər naziri Hakan Fidanla danışıqlar zamanı xüsusilə Ukraynada baş verən hadisələr və taxılın Qara dənizdən daşınması imkanları müzakirə olunub. İki ölkə mətbuatında yayılan məlumatlardan da göründüyü kimi, onlar Rusiya Federasiyasını sövdələşməni pozmaqda ittiham edən Qərbin mövqeyini tutmayıblar. Amma çıxılmaz vəziyyətdən çıxış yolları ilə bağlı razılıq əldə olunmayıb.***

Ərdoğanla Vanq Yi arasındakı danışıqlar mətbuata qapalı keçib, bitdikdən sonra jurnalistlərin suallarına cavab verilməyib. Brifinqdə Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Ning bildirib ki, həmsöhbətlər ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıblar. "Ukraynadakı böhrana və Qara dəniz vasitəsilə taxıl daşınmasına dair razılaşmaya gəldikdə, hər iki tərəf bu məsələlərin dialoq və danışıqlar yolu ilə düzgün şəkildə həll edilməsi barədə razılığa gəldi" deyib.

Reuters-in xatırlatdığı kimi, Ukraynaya Qara dənizdən taxıl ixrac etməyə icazə verən saziş BMT və Türkiyənin vasitəçiliyi ilə imzalanıb. ABŞ və bir sıra Avropa ölkələri Çini Rusiyaya təsir gücündən istifadə edərək, onu taxıl ixracı sazişinin şərtlərinə qayıtmağa məcbur etməyə, habelə Ukraynada hərbi əməliyyatların dayandırılmasına kömək etməyə çağırıb.

İndi bir çox ölkədə siyasətçilərin niyə dünyada ərzaq vəziyyəti haqqında bu qədər danışması başa düşüləndir. Beynəlxalq Valyuta Fondunun baş iqtisadçısı Pierre-Olivier Gurinşas bildirib ki, taxıl müqaviləsindəki fasilədən sonra dünya taxıl qiyməti 15% arta bilər. Hindistan telekanallarının verdiyi məlumata görə, dünyanın ən böyük düyü ixracatçısı olan Hindistan hökuməti onun ixracına qadağa qoyub. Eyni məhdudiyyət buğda ixracına da aiddir. Hindistan əhalisinin sayına görə dünyanın ən böyük ölkəsidir və onun hakimiyyət orqanları ilk növbədə öz vətəndaşlarının qidalanmasına diqqət yetirməlidirlər. Rusiya prezidentinin sözçüsü Dmitri Peskov bildirib ki, Moskva sazişə aid hissə tamamlandıqdan sonra ona qayıtmağa hazırdır.

Həm Türkiyə, həm də Çinin rəsmi mediası hər iki tərəfin taxıl müqaviləsini xilas etmək üçün nə etmək niyyətində olduğunu açıqlamır. Danışıqların gündəmindəki digər mövzularda Türkiyə və Çindən olan şərhçilər əsasən eyni məcrada çıxış edirlər. Məsələn, Türkiyə mediası xəbər verir ki, Ərdoğan iki ölkə arasında əməkdaşlığın, xüsusilə "Bir kəmər, bir yol" proqramı əsasında artırılmasına çağırıb. Açıqcası Pekini razı salmağa çalışan Ankara NATO üzvü olan Türkiyənin bu blokun fəaliyyətinin Asiya-Sakit okean regionuna genişlənməsini dəstəkləmədiyinə də diqqət çəkib.

"Global Times" Çinin Türkiyə ilə münasibətlərdə qarşılıqlı etimadı gücləndirməyə çalışdığını və hər hansı xarici qüvvələrin bu ölkənin daxili işlərinə qarışmasına qarşı olduğunu vurğulayır. Bu, açıq-aydın bir işarədir ki, ABŞ-da Ərdoğanın siyasi opponentləri var, xüsusən də vaiz Fətullah Gülən. Ancaq Vanq Yinin səfəri zamanı bu mövzuya toxunulmayıb.

Ərdoğanla danışıqlardan fərqli olaraq, xarici işlər nazirləri mətbuata danışıblar. Vanq Yi xüsusilə Çin və Türkiyənin inkişaf etməkdə olan böyük ölkələr olduğuna diqqət çəkib. Ona görə də onların əməkdaşlıq üçün böyük potensialı var. Vanq Yinin sözlərinə görə, ÇXR hökuməti Çinin özəl firmalarını Türkiyədə müəssisələr qurmağa təşviq edir, ticarət hesablaşmalarında yerli valyutalardan istifadəni dəstəkləyir və bunu davam etdirmək niyyətindədir. Fidan ikitərəfli əlaqələrin əhəmiyyətindən və yaxşı dinamikasından da danışıb.

Bir sözlə, iki ölkə arasında münasibətlər problemsiz inkişaf edir. Düzdür, Qərb jurnalistləri hələ də Vanq Yinin səfəri zamanı müzakirə olunan bir mübahisəli məqamı üzə çıxara biliblər. Məlum olur ki, xarici işlər nazirləri Sincan-Uyğur Muxtar Bölgəsindəki etnik, əsasən müsəlman, azlıq təşkil edən uyğurların taleyi ilə bağlı məsələ qaldırıblar. Qərbdəki insan haqları fəalları Çini uyğurlara qarşı ayrı-seçkilik etməkdə, hətta məcburi əmək tətbiq etməkdə ittiham edirlər. Çin bu ittihamları rədd edib.

Rusiya Elmlər Akademiyasının Çin və Müasir Asiya İnstitutunun elmi direktoru Aleksandr Lukin qeyd edib ki, taxıl müqaviləsini bərpa etmək mümkündür: "Bunun üçün Rusiya Federasiyasının onu uzatmadığı amilləri aradan qaldırmaq lazımdır. Rusiya müqavilənin şərtlərini yerinə yetirdi, Qərb ölkələri etmədi. Pekin və Ankara bu şərtlərə əməl edə bilsələr, taxıl tədarükü davam edəcək. Ancaq uğur qazanacağı ehtimalı azdır. Ankarada da müzakirə edilən Ukrayna münaqişəsinin xatırlanmasına gəlincə, Qərb uzun müddətdir ki, Çini Rusiyaya daha az yaxın mövqe tutmağa sövq etməyə çalışır. Məncə, Ərdoğanın çinliləri öz yanaşmalarını dəyişməyə inandırmaq istədiyi versiya şayiədir, dezinformasiyadır. Çin 12 maddəlik sülh planını irəli sürüb. Orada deyilir ki, atəşkəs elan etməlisən, sonra danışıqlar aparmalısan. Qərb bunu rədd edir. Düşünürəm ki, başqası Çini öz kursunu dəyişməyə inandıra bilməyəcək.

**V.VƏLİYEV**

PRIZMA



**Mətanət Məmmədova**

# Nə gözəl Bakımız var...

***Ümidvaram ki, mən tək deyiləm. Bunu hər kəs duyur, hiss edir. Nə gözəl Bakımız var, deyilmi? Xəyalım, illər öncəyə gedir. Bugünkü Bakı necə də o Bakıya bənzəyir. Az adamlı Bakı... Az maşınlı Bakı... Az səs-küylü Bakı...***

Şükür ki, aylar sonra Bakının bu gününü görmək bizə nəsib-qismət oldu. Nə gözəldir belə Bakı? Yollarda maşın sıxlığı yox, ən əsası siqnal səsi xeyli azalıb. İctimai nəqliyyatda ta camaat bir-birinin çiynində deyil. Səkilərdə, parklarda barmaqla sayılacaq qədər adam var.

Bakının nəfəs aldığını hiss edirəm. Nəfəs aldıqca daha da gözəlləşir. Bu şəhərin də haqqıdır nəfəs almaq. Niyə də almasın ki?..

İllər öncəki Bakını görürəm Bakıda. O vaxt ki insanlar öz kəndində-kəsəyində oturmuşdu. Bakı eşqi başlarına vurmamışdı. O vaxt ki Bakı əsl Bakı idi. Yollarında maşın maşına dayanmırdı. Siqnal səslərini toyda-düyündə eşidirdik. O vaxt ki tədris vaxtı da ictimai nəqliyyat bugünkü qədər sıx olmurdu. Çünki insanlar kəndlərini Bakıdan daha çox sevirdilər. Torpaqlarından qopub onu Bakı ilə əvəz etmək fikrində deyildilər. Əkib-becərir, Bakıda yaşayan övladlarına meyvə-tərəvəz payı göndərirdilər. Özləri də hərdən Bakıya gəzməyə gəlirdilər. Elə ki hamı bakılı olmaq sevdasına düşdü, kəndlər boşaldı, yurdlar yetim qaldı, Bakının da qara günləri başladı. Axı bu şəhər minlərlə insana necə qucaq açsın? Axı o, müəyyən ölçüyə malikdir. Bu ölçüləri genişləndirə, artıra bilmir...

Bu gün o-illər öncəki Bakının ətri gəlir Bakımızdan. Çünki dərs ili başa çatıb, tələbələr yollanıb rayonlara. Yayın istisi başlayıb, idarə, müəssisə, təşkilatlarda çalışanlar məzuniyyətlərini götürüb yollanıblar rayonlara. Bir də Bakıya daşlanan camaat rayondakı bağ-bağatlarında aşıb-daşan meyvələri bir yanlıq etmək üçün indi də rayonlara daşlanıb... Bu səbəbdən də Bakı xeyli azad olub. Nəfəsi genişlənib. Elə burada qalanlar da bunu hiss etməkdədir. İndi nə nəqliyyatda sıxlıq var, nə küçədə, nə bazarda, nə marketlərdə, nə də mağazalarda. Küçələrində insan əlindən yerimәyin mümkün olmadığı Bakı indi bu küçələri ilə gözəllik saçır.

İş otağımızın pəncərəsini yarıb içəri keçən maşın siqnalları, maşınlardan ətrafa yayılan musiqi guppultusu yoxa çıxıb. Otağımızın qorxudan aça bilmədiyimiz pəncərəsini indi aradabir aça bilirik. Çünki pəncərə önündəki maşın karvanı demək olar ki, azalıb.

Metroda bir, iki, üç qatarı ötürüb, nəhayət dördüncü qatara minməyə can atdığımız təqdirdə indi elə gələn birinci qatara minmək şansı var adamın. Marşrut avtobuslar da eynilə...

Nə gözəl Bakimiz var. Adam xəyal edir ki, kaş ki həmişə belə olardı bu şəhər. Axı belə ola bilər. İllər öncə belə idi bu şəhər.

Nə üçün kəndlərimizi tərk edirik? Hamımız şəhərli olmağa çalışırıq. Kəndləri də orada məyus qoyuruq? Gəlib şəhərin ən ucqar yerlərində yaşayıb, "biz Bakıda yaşayırıq",- deyirik. Nə olub ki, kəndlərimizə? Havası, suyu tərtəmiz. Meyvəsi-tərəvəzi bol, təbii...

Nə üçün qapılarımızı bağlı qoyub şəhəri seçirik? XXI əsrin dəbidirmi bu? Əziyyətsiz yaşamağa üstünlük veririk. Mal-heyvandan, əkin-biçindən, toyuq-cücədən qaçıb şəhərdə rahatlıq axtarırıq. Axı onların hər biri gözəl bir təsərrüfat sahəsidir: gəliri, qazancı, zəhməti-sağlamlığı ilə...

Biz şəhərli olmağa can atırıq. Asan, rahat həyat axtarırıq. Lakin əsl gözəlliyi arxamızda qoyub sıxlıq yaratdığımız şəhərə üz tutanda nələrin üzərindən xətt çəkdiyimizi necə, düşünürükmü? Düşünürükmü ki, sağlamlığımıza, əlvida, deyirik. Yurdumuza bağlılığa, əlvida, deyirik. Evişiyimizə, bağ-bağçamıza, buradakı ata-babamız yaşda olan ağaclara, əlvida, deyirik. Onları susuzluqla sınaqla üz-üzə qoyub tərk edirik...

Gəlirik şəhərə. Gəldikcə də Bakının gözəlliyini əlindən alırıq. İstər-istəməz çirklənir bu şəhər. Sıxlıqdan əziyyət çəkir. Bakı Bakılıqdan çıxır...

Bilirəm, o sıxlıq irəlidə yenidən görünəcək. Bu, sözsüzdür. Lakin o vaxta qədər "nə gözəl şəhərimiz var",- demək istəyirəm. Deyəcəyəm də. Heç olmasa, qısa zaman kəsiyində bu gözəlliyi görə, duya bilək...

# Laçına növbəti köç

***Bütün dünyanın diqqəti işğaldan azad olunan ərazilərimizə cəmlənib. Ermənilərin xarabazarlığa çevirdiyi şəhər və kəndlərimiz, qəsəbələrimiz, dini-mədəni abidələrimiz, insanlığa sığmayan əməllər nəticəsində darmadağın edilmiş, viran qoyulmuşdur. Ermənilərin viran qoyduqları ərazilərə bu gün xarici dövlətlərin nümayəndələri, qeyri-hökumət təşkilatları və s. səfər edərək erməni təcavüzkarlığı, barbarlığı ilə əyani olaraq tanış olurlar.***




*Prezident İlham Əliyev: "İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar"*

Səfər çərçivəsində Ağdam, Füzuli, Şuşa kimi işğal altında olmuş ərazilərimizdə erməni terroristlərinin törətdikləri vəhşilik nəticəsində dağıdılan, viran qoyulan maddi-mədəniyyət nümunələrimiz, dini abidələrimiz, yaşayış yerlərimizlə tanış olmaq imkanı yaranır. Əlbəttə ki, 30 ilə yaxın bir zamanda işğal altında olan torpaqlarımızın hər bir qarışında erməni təcavüzünün izi var. Öz çirkin əməllərini nəinki insanlara qarşı, hətta torpağa, daşa, təbiətə qarşı həyata keçirmiş, tariximizi saxtalaşdırmağa çalışmışdılar. Dünyada söz sahibi olan, böyük nüfuz qazanan Azərbaycanın dünya ölkələri ilə qurduğu qarşılıqlı əlaqələr, qazandığı etimadın nəticəsidir ki, bu gün deyə bilərik ki, dünyanın hər bir qitəsindən bu ərazilərə səfər edib, erməni vandallığının canlı şahidinə çevrilənlər təəssüratlarını mübaliğəsiz desək, dünya ilə bölüşürlər. Axı, bu vəhşiliyə qərəzi olmayan bir kəs dözə, laqeyd qala bilməz. Qısa bir müddətdə onlarla ölkənin nümayəndələri bu ərazilərdə olmuşlar, tarix boyu nifrətə sahib olan ermənilərin əməllərini kəskin şəkildə pisləmişdilər. Erməni vandalizmi və vəhşiliyinin sübutları xarabalığa çevrilən məkanlarda sanki dil açır. Qarabağ haqqında eşidən və kitablarda oxuyanlar indi bu gözəl və əsrarəngiz məkanı gözləri ilə görürlər. Buradakı dağıntılar onları təsirləndirir.



### "BİZİM SÖZÜMÜZLƏ ƏMƏLİMİZ ARASINDA BU DƏFƏ DƏ HEÇ BİR FƏRQ YOXDUR"

Bu gün Azərbaycan Ermənistan üzərindəki qələbədən sonra işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlayıb. Böyük Qayıdışın təntənəsini yaşayırıq. Bu da bir tarixdir. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərə səfər edərək erməni faşistlərinin törətdiyi vəhşiliklə tanış olur və öz tapşırıq və göstərişlərini verir. Xatırladaq ki, ilk səfər Füzuli və Cəbrayıl rayonlarına oldu və dövlət başçısı tərəfindən Füzuli - Şuşa avtomobil yolunun təməli də qoyuldu. Beləliklə, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinə start verildi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik".



Bildiyimiz kimi, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə Qarabağ Dirçəliş Fondunu yaradıldı. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycana dost ölkələr işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak etmək arzularını ifadə etdilər. İşğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verildi. "Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir", - deyə Azərbaycan Prezidenti bildirmişdi.



### "GÖRÜLƏN BÜTÜN İŞLƏR AZƏRBAYCAN HESABINA HƏYATA KEÇİRİLİR"

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlər 30 ildən sonra könüllü olaraq təhlükəsiz və yaşayış üçün yararlı olan doğma yurdlarına qayıdırlar. Artıq işğaldan sonra digər ərazilərimiz kimi, Laçın da böyük quruculuq meydanına çevrilib. Ağalı və Talış kəndindən sonra əzəli torpaqlarımızın sahibləri olan laçınlıların da bir qismi öz yurdlarına qayıtdılar. Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. 7-8 ay ərzində 700 bina inşa edildi. Artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Laçın şəhərinin Baş planı hazırlanıb. təqdim edilib. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək. Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. "Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq", - deyən Cənab Prezident bildirib ki, bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq: "Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir". İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri Həmin ərazilərimizdə ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Zəngilan rayonun Ağalı kəndində də sürətlə görülən işlər bu şəhərin sakinlərini tezliklə qoynuna alacağından xəbər vermiş oldu.

### LAÇIN ŞƏHƏRİNDƏ 168 AİLƏNİN (647 NƏFƏR) DAİMİ MƏSKUNLAŞMASI TƏMİN EDİLİB

İlk köç Ağalıdan başlasa da, Talış, Laçına da qayıdış oldu. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bərpa edilən və yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. İyulun 28-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına yola salındı. Daha 16 ailə (56 sakin) Laçına köçürüldü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bununla da Laçın şəhərində 168 ailənin (647 nəfər) daimi məskunlaşması təmin edilib.

İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən göründüyü kimi, Laçın rayonunda da abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Cari ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına veriləcəkdir: "İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur", - deyə Prezident bildirib. Müharibədən ötən müddət ərzində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

# Erməni KİV-ləri Gürcüstana qarşı ərazi iddiaları irəli sürürlər




*Tbilisinin Bakı ilə dostluq, mehriban qonşuluq münasibətləri və ermənilərin Cavaxetiya hədəsi*

"Gürcüstanda nahaq yerə hesab edirlər ki, bənzər antierməni davranışları onların rahatlıqlarını pozmayacaq". Bu fikirlərlə Ermənistanın armenianreport analitik informasiya agentliyi "Xain gürcülər antierməni bayraqları altına keçiblər" başlıqlı məqalə ilə çıxış edib və sözün əsl mənasında, Gürcüstanın Azərbaycan və Türkiyə ilə dostluq, mehriban qonşuluq münasibətlərinə qarşı hədəflənib, bu ölkənin ərazi bütövlüyünə separatçı baxışları ilə seçilib. Söhbət Gürcüstanın ayrılmaz tərkib hissəsi olan Cavaxetiyasından gedir. Həmin Cavaxetiyadan ki, yerli ermənilər və bütövlükdə Ermənistan bu əraziləri "Kiçik Ermənistan", deyə adlandırırlar.

### Bu, əsl daşnak düşüncə tərzidir

Erməni analitiki Tevos Arşakyan sözügedən məqaləsində yazıb ki, bu gün Gürcüstanın dövlət rəhbərliyinin Azərbaycanla əlaqələrini möhkəmləndirməsi, eləcə də bir çox sahələrdə əməkdaşlığı etməsi açıq-aşkar erməniləri hiddətləndirir. Halbuki, Gürcüstan suveren və müstəqil ölkədir, bu ölkənin hansı qonşuları ilə necə davranışlarına üçüncü tərəflərin burun soxmalarına isə gərək yoxdur.

Daha bir fakt budur ki, ermənilər nəinki Gürcüstanı, eləcə də işğaldan azad olunmuş ərazilərimizə səfərlər etmiş Ukrayna jurnalistlərini və blogerlərini də hədəfə götürərək guya (!) Azərbaycanın onları "pulla ələ aldığını" sərsəmcəsinə iddia edir. Bu, əslində, daşnak düşüncə tərzi, yaxud "pişiyin ağzının ətə çatmaması" misalıdır. Nədənsə, erməni analitiki yüngül beyni ilə dərinliklərin ağırlığına varmayaraq hesab etmir, ya da hesab etmək istəmir ki, istər gürcülər, istərsə də ukraynalılar ədalətin yanında dayanırlar və ortada heç də maddi maraqlar dayanmayıb, ortada mövcud olan ədalət prinsipidir. Bu ədalət prinsipinə Azərbaycan da hörmət edir və əbəs deyil ki, Ukraynanın Krım torpaqlarının, həmçinin, digər işğal olunmuş əraziləri məsələsində Kiyevin mövqeyini tutur. O cümlədən, Gürcüstanın işğal altında qalan ərazilərini – Abxaziyanı və Cənubi Osetiyanı rəsmi Tbilisinin yuridiksiyası altında olduğunu bəyan edir. Bu baxımdan, özlərini bir tərəfdən "əzabkeş", "məzlum" kimi təqdim edən erməni-daşnak xislətli jurnalistləri digər tərəfdən həqiqəti rədd edərək, yalnız iyrənc ittihamları ilə çıxışlar etməkdədirlər.

### Gülünc iddia ilə yalnız və yalnız bənzər erməni "analitikləri" çıxış edə bilərlər

Adıçəkilən Tevos Arşakyan bir az da irəli gedərək Gürcüstanın baş naziri İraqkli Qaribaşvilinin Bakıya səfərini "şərh" edərək iddia irəli sürüb ki, guya ona Bakıda "iki-üç milyon dollar rüşvət" verilib. Gülünc və axmaq bir iddia ilə yalnız və yalnız bənzər erməni "analitikləri" çıxış edə bilərlər - Arşakyanın tipində...

Təkcə onun yazısındakı bu ifadələrə diqqət yetirək və doyunca gülək: "...Bakı Tbilisidən hansı xidmətdi istəyib? Təbii ki, Ermənistana və erməni xalqına "duz səpməyi". Və Tbilisi gözünü qırpmadan buna razılıq verib..."

Ümumiyyətlə, illüziya və nağılları ilə farsları belə geridə qoymağı bacaran erməni "analitiklərindən" başqa cür hər hansı sərsəm iddiaları gözləməyə də dəyməzdi. O, bunu "Yuxarı Lars" sərhəd-keçid məntəqəsində zaman-zaman erməni furalarının buraxılmaması ilə əlaqələndirib, halbuki, həmin sərhəd-keçid məntəqəsindən digər ölkələrin də furaları keçmirlər, yaxud uzunmüddətli yoxlamalardan sonra buraxılırlar.

### Sən demə, "antierməni" davranışları Gürcüstana "baha" oturacaqmış...

Bütün bunları əlində "bayraq" edən erməni "analitiki" artıq ənənəvi olaraq hədələyici manevrə keçid edir. İddia irəli sürür ki, "antierməni" davranışları Gürcüstana "baha" oturacaqmış. Bəs nə baş verəcəkmiş?

Yenə də sitata müraciət edək: "Ermənistanın satqın gürcüləri yerində oturtmaları üçün kifayət qədər rıçaqları və vasitələri var. Onlardan biri – Cavaxdır. (İşğalçılıq və separatçılıq xəstəliyinə mübtəla olan ermənilər sırf və əzəli gürcü torpağı olan Cavaxetiyanı "cavax" adlandırırlar – A.T.). 30 illik "müstəqilliyi" (dırnaqlar bizimdir - A.T.) dövründə İrəvan "cavax" fəallarının orada yaşayan köklü çoxluq üçün (yəni ermənilər - A.T.) milli-mədəni muxtariyyət tələblərinə nail olmaları cəhdlərindən doğan atəşlərini söndürməklə məşğul olub. Ermənistanın onsuz da kifayət qədər problemləri olub və bizim hakimiyyətlər "cavax" icmasının çoxsaylı xahişlərinə rəğmən Tbilisi ilə münasibətlərini pozmaq istəmirdilər. İrəvan hətta Saakaşvilinin "cavaxda" bu torpaqların Ermənistana məxsusluğunu, dilini və dilini unutdurmaq üçün dinc əhaliyə qarşı kütləvi repressiyalar aparanda da susurdu. Ancaq indi "azərbaycanlılar tərəfindən pulla alınan gürcülər" bizi məcbur edirlər ki, "cavax" ermənilərinin "zülmlərinə" nəzər salaq və bu regionun Ermənistana inteqrasiyası məsələsi ilə məşğul olaq (???!!!).

Bax, budur gerçək, real, aşırı, hətta izafi erməni həyasızlığının bütün şkalaları aşan danılmaz sübutu! Hələ bu harasıdır? SİTAT: "Tbilisidə anlamalıdırlar ki, əgər "cavax" erməniləri Ermənistana birləşmək haqqında referendum keçirsələr, onun nəticələri gürcülər üçün məyusedici olacaq". Və burada dost və qardaş gürcü xalqına, sadəcə, səbir, təmkin, iradə və möhkəmlik arzulamaq qalır. Belə ki, erməni KİV-nin növbəti iddiası daha betər siyapurluğa söykənir: "Əgər daha da dərinə gedərsək, Tbilisi bilməyə məhkumdur ki, "cavax" ərazisindən qonşuları üçün mühüm strateji əhəmiyyətə malik Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizi keçir və yerli ermənilər İrəvanın delikant xahişi ilə onu blokadaya sala bilərlər. Bəs onda kim mənfi vəziyyətdə qalacaq?"

### Ermənistanın yaxın və uzaq gələcəyi kölgəli görünür, yaxud ümumiyyətlə görünmür...

Təbii ki, Tevos Arşakyanın sərsəm və kifayət qədər axmaq iddiaları əsla keçərli deyil. Necə deyərlər, milçək iyrənc deyil, könül bulandırır, yaxud son vaxtların ən çox işlənən atalar sözü – it hürər karvan keçər. Bütün bunlara rəğmən, erməni KİV-lərinin, aparıcı medialarının bənzər fikirlərlə çıxış etmələri, əslində, bir daha sübut edir ki, qonşu ölkələrin torpaqlarına göz dikmək onların kirli qanlarına hopmuş bir gerçəklikdir. Xüsusilə, bu gün Azərbaycanın regiondakı üstün mövcudluğu, habelə Ermənistan istisna olmaqla bütün qonşuları ilə normal münasibət qurması, ancaq hər şeyə rəğmən, düşmənə belə sülh müqaviləsi imzalamaq dəvətini etməsi – bütün bunlar reallıqlardır.

Ancaq təbii ki, mənfi vəziyyətdə qalan da erməni müəllifinin iddia etdiyi kimi Gürcüstan deyil, məhz Ermənistandır. Təəssüf ki, bunu anlamayan erməni-daşnak düşüncəsi davam elədikcə, bu xalqın və dövlətin gələcəyi, hətta yaxın gələcəyi ya kölgəli görünür, ya da ümumiyyətlə, görünmür.

**Afət Tahirqızı**

## TƏRS BAXIŞ

# Cəmil Həsənlinin "Soros"la Vətənə xəyanət etirafı

"Milli Şura"nın sədri Cəmil Həsənli bu günlərdə "Azadlıq" televiziyasına verdiyi müsahibədə Vətənə illər öncə necə "xidmət" etdiyindən ətraflı danışıb: "Mən bir müddət Azərbaycanda "Soros fondu"nun üzvü olmuşam. Fond bord üzvlərinə hər ay 200 dollar əməkhaqqı verirdi. Layihələrin dəyərləndirilməsi, toplantılarda iştirak, müzakirələrin aparılması ilə bağlı yəni bunu əməkhaqqı kimi verirdilər".



Buyurun, illərdir ki, biz bar-bar bağıranda ki, AXCP-Müsavat cütlüyü üzvləri xaricdən idarə olunurlar, maliyyələşdirilirlər, bizə inanmayanlar da var idi. Çünki biz onların iç üzünü bilirdik. Torpağı da bax, bu maliyyələşmə, verilən qrandlarla və əbədi kürsü haqqında vədlərlə satmışdılar.

Atalar necə də yerində deyib: utanmasan oynamağa nə var ki. Bir də bu da qismətin, alın yazısının işidir ki, bəzi insanlara ağsaqqallıq nəsib olmur. Cəmil Həsənli kimi. Budur, zaman gəlib çatdı. Cəmil Həsənli özü Vətənə necə xəyanət etdiyini, həm də 200 dollar qarşılığında Vətənə necə arxa çevirdiyini televiziya vasitəsilə etiraf etdi. Halbuki zamanında (elə indi də) onların bu əməlləri üzlərinə çırpılanda yenə də qaçıb arxaların-da dayanan bu kimi təşkilatlara üz tutur, yardım istəyirdilər.

Maraqlıdır, bəs necə oldu ki, Cəmil Həsənli çıxıb bu "Soros" məsələsini etiraf etdi? Bunun iki variantı var. Bəzi insanlar yaşlaşdıqca bir qədər ağıllarını itirirlər, ya bu səbəbdəndir, ya da Qubad İbadoğlu məsələsi Cəmil "bəyi" yamanca təşvişə salıb. Düşünüb ki, qoy hüquq-mühafizə orqanları bunu aşkara çıxarınca, özüm etiraf edim ki, üstü açılanda desinlər ki, özü bunu deyib də. Həqiqətən də "siyasətin" necə üzü varmış

Cəmil Həsənli "Soros fondu"na xidməti haqqında elə qürurla danışır ki, bilməyən deyər ki, bu fond beynəlxalq-humanist bir fonddur, bu kişi də qəhrəmandır. Lakin "Soros"un ölkələrin başına gətirdiyi oyunları çox yaxşı bilənlər də var. Bir nümunə ilə "Soros"u qısaca olaraq xatırlayaq. İllər öncə Moldova parlamentinin Sosialistlər Partiyasından olan nümayəndəsi Boqdan Tsırda yazırdı: Soros fondu hər yerdə eyni anda meydana çıxdı və əvvəlcə tarix kitablarına sponsorluq etdi. Bəs orada nədən bəhs olunurdu? Bu kitablarda bizə ölkərimizin nə qədər geridə qaldığını və necə kömək edəcəklərini aşılayırdılar. Sonra fond qrant layihələrinə başladı. Niyə? Gənc beyinləri cəlb etmək üçün. Guya onları seminarlara, tədqiqatlara cəlb eləyir, bu insanlar isə özləri də anlamadan dövlətləri haqqında kəşfiyyat məlumatlarını onlara ötürürdülər. Bu prosesə heç kim nəzarət etmirdi. Çünki 1990-ci illərdə hər yerdə anarxiya hökm sürürdü".

Onun sözlərinə görə, istifadə olunan birinci variant yumşaq üsuldur. "Əvvəlcə ölkədə fond açılır, eyni zamanda, QHT-lər və qeyri-kommersiya təşkilatları yaradılır, sonra digər strukturları maliyyələşdirməyə başlayır və beləcə ölkənin maraqlarına deyil, sponsorlara xidmət edən bir şəbəkə yaranır. Eyni şəbəkə prinsipi əsasında da fond öz adamlarını güc strukturlarında işləmək üçün irəli çəkir".

"Soros"un ölkələrdə nəyə xidmət və ona üzv olanların Vətənlərinə necə xəyanət etdiyini bu açıqlamada aydın görmək olur. Hələ fond tərəfindən Cəmil "bəy" və onun kimi 200 dollara işləyənlərin Vətənə xəyanət üçün nə təkliflər aldığını isə bir onlar, bir də Allahları bilir.

Bütün bunların fonunda biz AXCP üzvlərinin ermənilər üçün status istəmələrini, humanitar yardım üçün yol tələb etmələrini, "Müsavat"çı yetirmələrin qondarma erməni soyqırımını dəstəkləmələrini, dərin hüznlə anmalarını nə üçün qəribə qarşılayırıq ki? Bunlarla AXCP-"Müsavat"ın iç üzü açılır, qoy, açılsın, xalq bu xəyanətkarları daha da yaxşı tanısın.

Səkkiz il öncə Cəmil Həsənli "Vətənə, xalqa xəyanətə gəlincə, ərazisi işğalda olan ölkənin hakimiyyətinin korrupsiyaya qurşanmasından böyük xəyanət yoxdur, yerdə qalan bütün xəyanətlər ondan aşağıda durur", - deyə müsahibələrinin birində iddia edirdi. Bu iddia da, sözsüz, "Soros"un tapşırığı idi. Cəmil Həsənlinin cəmi 200 dollar qarşılığında Vətənə xəyanətini etiraf etməsi fonunda ona bir sual vermək istəyirəm: Cəmil "bəy", sizcə ölkə daxilində hər hansı bir korrupsiya işinə qurşanmış hakimiyyət nümayəndəsi ilə, yoxsa "Soros" kimi təhlükəli fondla əməkdaşlıq çərçivəsində ölkəsini satışa çıxarmış müxalifət nümayəndəsi ilə mübarizə aparmaq daha asan olar? Cavabınız ümumilikdə xalq üçün maraqlı olardı...

**Mətanət Məmmədova**

# Meşəyə baxmaq haqqı...






## Milli Park, yoxsa Biznes Park?

***Əhvalat vaqe olur iki min iyirmi üçüncü il iyun ayının iyirmi birində Xaçmaz rayonunda. Burada keçiriləcək bir tədbirə - Hüquqi və Demokratik İslahatlar Mərkəzinin insan alverinə qarşı mübarizə layihəsi çərçivəsində keçirilən dəyirmi masaya sosioloq ekspert kimi dəvət olunmuşam. Maraqlı müzakirələr getdi. Tədbirdən sonra nahar eləmək üçün təbiət qoynunda yer axtarırdıq. Xaçmazlı dostumuz Nəsir həkim təklif etdi ki, bu yaxında bir maraqlı yer var meşənin içində, gedək orada necə deyərlər, "bir kısmat çörək" yeyək.***



Nə isə yol aldıq rayonun şimal hissəsinə - Samur-Yalama Milli Parkına. Həqiqətən də, böyük meşəlik və təbii gözəllik. Yolda Şollar suyunun mənbəyindən buz kimi sərin su da götürdük və gəlib çatdıq deyilən məkana - Tel restoranına. Deməк, Milli Parkın içində fəaliyyət göstərən restoran 2 kiçik tikili və 10-a yaxın taxta stoldan ibarətdir. Özümüzlə bir qədər ət, tərəvəz, qarpız filan da






götürmüşdük.

Onları restoran işçilərinə verdik ki, kabab eləsinlər haqqını da ödəyək.

Nə isə, öz gətirdiyimiz məhsuldan bir neçə şiş kabab çəkmək üçün bizdən 20 manat aldılar. Əlavə də, restorandan bəzi şeylər - çay, meyvə-filan aldıq və pulunu da ödədik. Yeməyimizi yeyib bir qədər meşənin gözəlliyindən feyziyab olduqdan sonra qalxdıq. Arxamızca gələn ofisiant dedi ki, müəllim, bəs bizim pulumuzu ödəməmisiniz. Nə pulu? Sən demə, oturduğumuz bərbad taxta stol-stula görə də əlavə 20 manat pul ödəməliyik. Bu pulu da ödədik. Məlum olduğu kimi, aldığımız ərzağa cəmi 30 manat vermişik, burada oturub onu yemək üçün 40 manat ödəmişik. Yəni, dünyanın heç yerində belə biabırçılıq görünməyib.



Buradan çıxışa tərəf gedəndə gözümə ağaca vurulmuş bir elan sataşdı - "Milli Parka giriş ödənişlidir". (Fotoya bax- E.B) Yəni, bir vətəndaş ağaclara baxmaq üçün kiməsə pul ödəməlidir. Bu nə biabırçılıqdır?

Milli Park ümumxalq mülkiyyətidir. Burada, sadəcə, meşəyə baxmaq üçün bu meşənin sahibi olan vətəndaşlardan pul almaq nə deməkdir?

Xüsusən də, Milli Parkda. Ağzında Milli Park deyirsən ey, a kişi, Milli Park. Bura xalqın sərvətidir, Allahın insanlara bəxş etdiyi nemətdir. Bu meşələr bütün vətəndaşların ortaq mülkiyyətidir, yəni mənimdir, bizimdir. Sən kimsən ki, mənim meşəmdə məndən pul alırsan öz meşəmə baxdığım üçün?

Milli Parkda diqqətimizi daha bir məqam çəkdi. Belə restoranların səs-küyü ucbatından didərgin düşmüş heyvanların yerinə onların maketi düzülüb. Ağacların dibində dovşan, dələ, tısbağa, tülkü maketləri qoyulub. Milli Parkın girişində meşədə yaşayan heyvanlar haqda məlumat verilib (fotoya bax-E.B), amma onların heç birinə burada rast gələ bilməzsən. İstəsən heyvan maketi ilə şəkil çəkdirə bilərsən.

Sözüm ondadır ki, xalqın ümumi sərvəti olan meşələrə, çaylara, göllərə baxmağa görə vətəndaşdan pul alınması dünyada analoqu olmayan rüsvayçılıqdır və adamın öz malını özünə satmağa bənzəyir. Bu biabırçılığa son qoyulmalıdır. Yalnız bu məkanlarda göstərilən hansısa xidmətə görə haqq alına bilər.

Qeyd edək ki, Samur-Yalama Milli Parkı 2012-ci ildə yaradılıb. Sahəsi 118 kv km-dir. Xaçmaz rayonunun şimal hissəsini əhatə edir.

Azərbaycanda 10 Milli Park yaradılıb-Zəngəzur Milli Parkı, Şirvan Milli Parkı, Ağgöl Milli Parkı, Hirkan Milli Parkı, Altıağac Milli Parkı, Abşeron Milli Parkı, Şahdağ Milli Parkı, Göygöl Milli Parkı, Samur-Yalama Milli Parkı və Qızılağac Milli Parkı. Milli parklar ölkə ərazisinin 5 faizə yaxın hissəsini təşkil edir.

İndi müvafiq orqanlar məsələyə aydınlıq gətirməlidirlər - Milli Parklara giriş niyə pullu olmalıdır? Yəni, vətəndaş öz meşəsinə baxmaq üçün niyə pul ödəməlidir? Cavabı dərc etməyə hazırıq.

***Elçin Bayramlı***

# Cəmiyyətin “ağ ölüm"ü

***Dünyanı narahat edən, bəşər övladının bəlasına çevrilən, bir çox gənclərin aludə olduğu narkomaniya bu gün demək olar ki, öz sferasını genişləndirib. Cəmiyyət üçün çox qorxulu, təhlükəli olan narkomaniya insan sağlamlığına bərpaedilməz ziyan vurmaqla yanaşı, cəmiyyətdə neqativ halların yaranmasına da səbəb olur. Çünki narkomaniya cinayətkarlığa, zorakılığa və korrupsiyaya rəvac verir, immunçatışmazlığı sindromunun sürətlə artmasına təkan verir. Bunun təsirindən ailələri dağıdılır, ömürlər yarımçıq qalır. Əlbəttə ki, cəmiyyətin yarasına çevrilən "ağ ölüm" sosial partlayışlara səbəb olub. Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq cəmiyyətin intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə, bir çox mənfi hallara gətirib çıxarır.***

Bu, həm də və ən əsası, cinayətkarlığın artmasına səbəbdir. Narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir. Azərbaycanda da narkomaniyaya qarşı mübarizə sahəsində dövlət tərəfindən kifayət qədər işlər görülüb. Bu sahədə fəaliyyət, ardıcıl olaraq, davam etdirilir və daha da genişləndirilir. Belə ki, ”Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli Fərmanı narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdə mühüm bir Sənəd oldu.

Daha sonra, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli Fərmanı ilə ”Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı”, 2007-ci il 28 iyun tarixli Sərəncamla ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı (2007-2012-ci illər üçün)”, 2013-cü il 24 iyun tarixli Sərəncam ilə ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət



Proqramı” təsdiq edilmiş və uğurla həyata keçirilmişdir. Dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi görülən işlərin davamı oldu. Dövlət Proqramından irəli gələrək respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilib və




bu davam etməkdədir. Eyni zamanda, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsullar tətbiq olunur.

Son illər respublikamızda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, digər bihuşedici maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların, qeyri-hökumət təşkilatlarının da fəallığı nəzərə çarpacaq dərəcədə artmışdır.

Bu gün narkomaniyanın gəncləşməsi prosesi gedir. Narkotik maddə alverçiləri uşaqlardan sui-istifadə edərək, onlara həmin məhsulları təklif edirlər. Beləliklə, uşaqlarda aludəçilik yaranır. Bildiyimiz kimi, narkotik maddələr orqanizmə daxil olduqdan sonra psixoloji, hərəki və fiziki dəyişikliklərə səbəb ola bilən və asılılıq yarada bilən kimyəvi maddələrdir. Mütəxəssislərin qənaətinə görə, narkotik maddə asılılığı, saxta xoşbəxtlik hissi verən maddənin müəyyən təsiri əldə etmək üçün lazım olan istifadəsi müddətində ortaya çıxan, fiziki, psixi və sosial problemlərə baxmayaraq, maddə istifadəsinin davam etdirilməsi və bu istəyin dayandırıla bilmədiyi bir vəziyyətdir. Narkotik beyin funksiyalarına və bütün orqanizmə təsir edir. Zamanla zehni və davranış problemləri yaradaraq, insanın yaxın münasibətlərinə, ictimai və peşə həyatına mənfi təsir göstərir.

Əlbəttə ki, narkomaniya yalnız cəmiyyətin narkotik asılılıqdan əziyyət çəkən fərdinin deyil, ümumilikdə cəmiyyətin bir problemidir. Narkotik istifadəçisi birbaşa və ya dolayı yolla cəmiyyətin bütün üzvlərinə təsir edir. Mütəxəssislərin qənaətinə görə, narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır. Narkomanlığın yayılmasının qarısını almaq üçün maarifləndirmə tədbirlərinin təşkil davamlı olmalıdır. Qorxunc bu kabus gənclərin başı üzərində dolaşmaqdadır. Gənc və yeniyetmələrin sağlam böyüməsi təkcə dövlətin üzərinə düşən məsuliyyət deyil, bu işdə hər kəs bacardığını etməlidir. Cəmiyyətin hər bir vətəndaşının bu istiqamətdə fəallığı mütləqdir.

***Nəzakət ƏLƏDDİNQIZI***





Təhmasib Novruzov

# Susmaq həmişəmi qızıldı?

Ataların məşhur deyimini hər kəs bilir: “Danışmaq gümüşsə, susmaq qızıldır!” Heç şübhəsiz, atalarımızın bizlərə miras qoyduqları hər bir kəlam illərin, əsrlərin sınağından çıxmış müdrik deyimlərdi. Amma deyilən hər bir müdrik kəlamın yerini, məqamını nəzərə almaqla anlamaqda fayda var.

Susmağın qızıl olması fikri də belə kəlamlardandır. Yəni susmaq hər zaman qızıl deyil axı! Bəzən susmaq kədərə, qəmə, bəzən hətta faciəyə gətirib çıxarır. Elə müasir dövrümüzdə hər gün rastlaşdığımız saysız-hesabsız olayları seyr etməklə kifayətlənib, susuruqsa, bu, bizi hansı fəlakətlərə sürükləyir. Məni bəzən buna görə qınayanlar, “əşi, nə dərdinə qalıb, dünyanı sən düzəltməyəcəksən ki!” deyənlər də tapılır. Amma xarakterimləmi bağlıdır, yoxsa anormallıqlara biganə olmağa iradəmin çatmamasındanmı, bilmirəm, belə öyüd-nəsihətləri hər zaman qulaq ardına vurirəm. Bir-ikisini deyim, görün o məqamlarda susmağım doğru olardı, yoxsa susmamaqla doğru eləmişəm? Bir “ford” markalı avtobusla rayona gedirdim. Sürücü Afət Fərmanqızı deyilən bir “bəstəkar”ın “bəstə”sində Nəsiminin “Sığmazam” “mahnı”sını səsgücləndirici ilə salona verdi. Bu “mahnı” haqqında çox danışıldığına görə vaxt aparıb onun məziyyətlərindən danışmaq istəmirəm. Musiqi səslənən kimi, dərhal səsimi qaldırıb o “mahnı”nı götürməyi tələb elədim. Əvvəl sürücü səsləndi ki, sənin xoşuna gəlmir, qulaq asma, biz xoşlayırıq. Mübahisə yarandı. Avtobusdakı bir-iki cavan da sürücüyə haqq qazandırdı. Amma mən geri durmaq fikrində deyildim. Nəhayət, musiqi dayandırıldı və mən Nəsiminin bu dünyanı heyrətə gətirən fəlsəfi əsəri haqqında bir neçə kəlmə dedim. Sonra isə belə bir əsərin hind melodiyası altında oxumağın təkcə Nəsimiyə deyil, milli kimliyimizə hörmətsizlik olduğunu izah etdim. İnanın ki, sürücü də, o biri cavanlar da məndən üzr istədilər və həmin diski maşının pəncərəsindən tullamaqla məni sakitləşdirdilər. Necə bilirsiniz, bir ziyalı kimi belə bir biabırçılığa susmaq qızıldı, yoxsa danışmaq?

Şəhər marşrutunda yol gedirdim. Mənimlə yanaşı və üzbəüz əyləşən iki ortayaşlı xanım gözlərini açıb, ağızlarını yumub hökumətə qarşı hədyanlar yağdırırdılar. Ətrafda boynu qalstuklu, bazburtlu çoxlu adamlar var idi, bəzisi sadəcə başını bulayır, bəzisi istehzalı şəkildə gülümsünürdü. Nəhayət, adətim üzrə, yenə mən dözmədim və birbaşa sual verdim: işləyirsiniz, xanım? “Hə” deyib ikisi də müəllim olduqlarını bildirdilər. Vaxt itirmədən iyirmi il əvvəl aldıqları əmək haqqını soruşdum. Dedilər. Bu gün aldıqları əmək haqqını soruşdum. Məlum oldu ki (hətta nəzərə alsaq ki, müəllimlər indiki əmək haqlarını azaldaraq dedilər-T.N.) , iyirmi ildə bu müəllimlərin əməkhaqqı nə az, nə çox, səkkiz dəfə artıb. Sonra fikirlərimi dedim, dövlətdən hamının umması, amma dövlətə borcumuzu çoxumuzun unutduğumuzu deyib, bəzi məqamlara öz fikrimi bildirdim. İnsafən, xanımlar mənimlə diskussiyaya maraqlı oldular və avtobusdan enənə kimi danışdıq. Danışdıq və düşəndə mənimlə razı olduqlarını etiraf elədilər.

Daha bir nümunə. Yenə ictimai nəqliyyatda iki gənc qız bir-biri ilə yarı rus, yarı Azərbaycan sözlərindən ibarət anlaşılmaz bir “dil” formalaşdırıb danışırdılar. Yenə dözməyib dilləndim:”Ay qızım, ya rusca danışın, ya da azərbaycanca!” dedim. Qızlardan biri “ağsaqqal kişisən, sənin (sizin yox a... sənin-T.N.) nə borcuna necə danışırıq” deyə məni borclu çıxarmaq istəyəndə, kənardan bir xanım (sonradan bildim ki, AMEA-da çalışır-T.N.) müdaxilə etdi. Mənim haqlı olduğumu deyib, o da qızlara xırda məsləhət verdi. Artıq qızlar danışmadılar. Amma, səmimi deyirəm, sanki mənim həmin reaksiyam hər tərəfə yayıldı və o zamandan ictimai yerlərdə belə danışanlarla qarşılaşmamışam.

Belə faktlardan hələ çox misallar gətirə bilərəm. Amma, düşünürəm ki, bu misallar mənim nə demək istədiyimi anlamaq üçün kifayətdir. Bəzən şəxsiyyətmizə toxunan bir kəlməyə görə ətrafdakıları da nəzərə almır, iki-üç qat kobud ifadələr işlədir, bəzən də əlbəyaxa davaya çıxırıq. Amma dövlətimizə, dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə, dilimizə hörmətsizlik edənlərə seyrçi qalır, susuruq. Mən belə susmağı nəinki qızıl, heç dəmir də hesab eləmirəm. Axı bu dövlət də, bu milli dəyərlər də, bu dil də bizim min illər qoruduğumuz və min illər də bundan sonra qoruyacağımız ən qiymətli xəzinəmizdir. Bu xəzinəyə toxunan hər kəsi başa salmaq, başa düşməsə zorla qandırmaq bizim, xüsusilə millətin ziyalı kəsiminin borcudur! Biz susarıqsa iblislərin insan cildində yer üzünə səpələdikləri dördayaqlılar danışar. Onlar isə iblisin istədiyi kimi danışar. Nəticə? Bu suala cavabı oxucuların ixtiyarına buraxıram.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# ŞOK: Piylənmə Azərbaycan iqtisadiyyatına 3 milyard zərər vuracaq!



***Piylənmə müasir dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ən vacib sağlamlıq problemləri arasında liderlik edir. Köklük bəşəriyyətin probleminə çevrilib desək, daha doğru olar. Piylənmə bədənin yağ kütləsinin yağsız kütləyə nisbətdə həddindən artıq artması və nəticədə boy uzunluğuna görə bədən ağırlığının normadan artıq olmasıdır.***

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, dünyada 1 milyarddan çox piylənmədən əziyyət çəkən insan var və 2035-ci ildə bu rəqəmin 4 milyardı keçəcəyi təxmin edilir. "Orqanizmdə sağlamlığı pozacaq dərəcədə və həddindən artıq yağ yığılması" olaraq xarakterizə edilən piylənmə müasir dövrün ən böyük sağlamlıq problemlərindən biridir.

Təşkilatın məlumatına görə, dünyada 1 milyarddan çox insan artıq çəkidən və ya piylənmədən əziyyət çəkir. Bu insanların 650 milyonu böyüklər, 340 milyonu gənclər, 39 milyonu isə uşaqlardır. Hər 7 kişidən 1-i və hər 5 qadından biri piylənmə ilə mübarizə aparır. Dünya Piylənmə Federasiyasının açıqladığı məlumatlara görə 2035-ci ildə piylənmə ilə mübarizə aparan insanların sayının 4 milyardı keçəcəyini gözlənilir. 2020-ci ilə nisbətən 2035-ci ilə qədər artıq çəki problemində uşaq və gənclərin nisbətinin iki dəfə artacağı, bu göstəricinin 18 yaşa qədər oğlanlar üçün 100 faiz, qızlar üçün isə 125 faiz artacağı gözlənilir.

## Bədəninizdə yağ faizi neçədir?

Qidalanma ana bətnindən başlayaraq həyatının sonuna qədər ehtiyacımız olan amildir. İnsanın böyüməsi, inkişafı, sağlam və məhsuldar olaraq uzun müddət yaşaması üçün lazımlı olan qida elementlərini bu qidalanma vasitəsi ilə qəbul edirik. Qidalanmaq aclığı dəf etmək, ürəyin istəyən qidaları yemək, harada və necə gəldi nəsə yemək deyil. Ekspertlər qidalanmanı özlüyündə bir elm hesab edirlər. O elmi bilən hər kəs nəyi, necə və nə ilə yeməyi yaxşı bilir, qida balansını pozanlar isə əsrimizin bəlasına – piylənməyə düçar olurlar.

Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarında bildirilir ki, yetişkin kişilərdə bədən ağırlığının 15-18 faizi, qadınlarda isə 20-25 faizini yağ toxuması təşkil edir. Bu rəqəmlər kişilərdə 25, qadınlarda isə 30 faizdən çox olması artıq piylənmənin əlamətidir.

## Piylənmə haradan, necə yaranır?

Piylənmə ürək xəstəlikləri, insult, diabet və müxtəlif xərçəng növləri də daxil olmaqla, dünyanın bəzi aparıcı ölüm səbəbləri üçün əsas risk faktorudur. Piylənmə ilə əlaqəli 2-ci tip diabet yarana, bu da nəticədə ürək xəstəliyi, görmə itkisi və böyrək problemləri kimi ağırlaşmalara səbəb ola bilər.

Gündəlik qəbul edilən qida insanın tələbatı olan həddi keçirsə, bu, piylənmənin ilk mərhələsinə hazırlıqdır. Həzm sistemimizin gücü çatmayan qidalar orqanizmdə tullantılara çevrilir, yağ olaraq yığılır və nəticədə piylənmə yaranır. Hər kəsdə piylənmə səbəbi müxtəlifdir. Kimisi səhər, günorta, axşam hazır qida yeyir, tərəvəzi yemək hesab etmir, GMO, fast-food, transgen qidalardan hazırlanan menyulara üstünlük verir. Kimisi bunlardan uzaq bir menyu ilə qidalanır, amma işi oturaqdır, az hərəkət edir, şirniyyat, şokalad sevir, o halda da piylənmə baş qaldırır. Bir faktı da qeyd etmək lazımdır ki, bəzi hormonal iynə və dərmanlar da piylənmə yaradır. Son illər dünyada antibiotiklərin piylənmə yaratdığı barədə iddialar var. Antibiotiklər insan orqanizminə tətbiq edildikdə, orada bizim həyat funksiyamızı təmin edən minlərlə mikrofloranı öldürdüyü üçün orqanizm piylənir.

## Dünya kökəlir, xəstəliklər artır

ÜST-ün hesabatlarına görə ABŞ, Çin, Braziliya, Hindistan və Rusiyada piylənmə halları dünya üzrə piylənmənin təxminən üçdə birini təşkil edir. Ürək, böyrək, qaraciyər və reproduktiv orqanlara təsir edən artıq çəki, şəkərli diabet, ürək-damar xəstəlikləri, hipertoniya, insult və müxtəlif xərçəng növlərinə səbəb olur.



"Our World in Data"nın hesabatlarına görə isə dünyada böyüklərin 39 faizi artıq çəkidən əziyyət çəkir. Rəqəmlərə görə, britaniyalıların təxminən 64 faizi, amerikalıların isə 68 faizi piylənir. Siyahıya əsasən, Sakit okeandakı Nauru adası 88,5% artıq çəki və ya piylənmə ilə siyahıya başçılıq edir. Dünyanın ən arıq ölkəsi 18,3% ilə Vyetnam olub. Dünyanın ən kök 10 ölkəsinin hamısı Sakit okeanda yerləşir, ikinci yerdə Palau (85,1%), müvafiq olaraq, 84,7 faiz, 83,5 faiz və 81,9 faizlə Kuk adaları, Marşal adaları və Tuvalu gəlir.

Siyahının davamında ilk 10-luqda Niue, Kiribati, Tonqa, Samoa və Mikroneziya ölkələri yer alıb. Sakit okean hövzəsindən kənarda Küveyt 73,4% ilə on birinci yerdədir. 195 ölkənin yer aldığı cədvəldə ABŞ 15-ci, Avstraliya 25-ci və İngiltərə 30-cu yerdədir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkələri arasında ən yüksək piylənmə nisbətinin 42,4 ilə ABŞ-da müşahidə edildiyi iddia edilir. 2000-ci ildə 30,5 faiz olan bu göstərici son illərdə sabit artım nümayiş etdirib. 2022-ci ilə qədər ABŞ-ın 17 ştatında piylənmə nisbəti 35 faizdən yuxarı olub. Bundan başqa, ölkədə 2-19 yaşlı hər 5 nəfərdən 1-i piylənmədən əziyyət çəkən kimi qeydiyyatdadır.

## Necə mübarizə aparmalı?

Piylənmə bəşəriyyətin ən ciddi probleminə çevrildiyi üçün bütün dünyada onunla ciddi mübarizə metodları həyata keçirilir. Bir çox ölkədə milyonlarla insan dövlət hesabına idman zallarında peşəkar müəlimlərlə idmana sövq edilir, bəzi ölkələrdə qidalanma ekspertləri maarifləndirmə işləri təşkil edərək ev-ev dolaşıb buroşürlər paylayır.



Azərbaycanda qadınların təxminən üçdə birində artıq çəki və piylənmə müşahidə olunur. İndiyədək aparılan tədqiqatların nəticələrinə görə, artıq çəki və piylənmə Azərbaycan əhalisi arasında rast gəlinən ən böyük problemdir. Piylənmə həm kişilər, həm qadınlar arasında olsa da, bu faktor qadınlar arasında daha çox yayılıb. Piylənməyə əsas səbəb kimi hərəkətsizlik göstərilir. Kişilər arasında daim idmanla məşğul olanların göstəriciləri 8 faiz təşkil edirsə, qadınlar arasında bu göstərici cəmi 4 faizdir. Bu isə çox aşağı göstəricidir.

## Piylənmə ölkəmizə baha başa gəlir

2035-ci ildə insanların artıq çəki və piylənmə problemləri ilə bağlı Azərbaycan iqtisadiyyatının zərəri $3 milyardı və ÜDM-in 4,4%-ni keçə bilər. Bu proqnoz Ümumdünya Piylənmə ilə Mübarizə Federasiyasının məruzəsində əks olunub.

Hesabatda təqdim edilən məlumatlara əsasən, 2020-ci ildə əhalinin artıq çəki və piylənmə səbəbindən Azərbaycan iqtisadiyyatının itkiləri $1,273 milyard və ya ÜDM-in 2,8%-ni təşkil edib. 2025-ci ildə bu itkilər $1,74 milyarda (ÜDM-in 3.2%-ni), 2030-cu ildə - $2,444 milyarda (ÜDM-in 3,8%-ni), 2035-ci ildə - $3,461 milyarda (ÜDM-in 4,4%-ni) çata bilər.

Təşkilatın qiymətlənsirmələrinə görə, 2020-ci ildə bu problem ilə mübarizəyə Azərbaycanda səhiyyə sisteminin xərcləri $108 milyon həcmində qiymətləndirilir, 2025-ci ildə $130 milyon, 2030-cu ildə - $165 milyon, 2035-ci ildə - $210 milyon təşkil edəcək. Təşkilatın analitikləri hesab edirlər ki, 2035-ci ildə Azərbaycanda hər üçüncü yetkinyaşlı şəxs piylənmədən əziyyət çəkəcək.

Bu vaxta qədər dünyada 4 milyarddan çox şəxs artıq çəki problemi ilə üzləşə bilər (hesabata əsasən, 2020-ci ildə 2 milyard 603 milyon şəxs), 1 milyard 914 milyon nəfər isə piylənmədən (2020-ci ildə 988 milyon şəxs) əziyyət çəkə bilər. 2035-ci ildə əhalinin artıq çəki və piylənmə problemi ilə əlaqədar dünya iqtisadiyyatının zərəri $4,32 trilyon və ya dünya ÜDM-in 2,9%-ni (2020-ci ildə - $1,96 trilyon və ya dünya ÜDM-in 2,4%-ni) təşkil edə bilər.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
29 iyul
2023-cü il

# Övladlığa götürməklə bağlı qaydalar dəyişdi: hansı yeniliklər var?



***Övladlığagötürmənin dövlət qeydiyyatı qaydası dəyişib. SİA-nın xəbərinə görə, Nazirlər Kabineti bununla bağlı “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nda dəyişiklik edib.***

İndiyə qədər qüvvədə olan Qaydaya əsasən, övladlığagötürmənin dövlət qeydiyyatı övladlığa götürənlərin birgə ərizəsi və ya onlardan birinin ərizəsi ilə övladlığagötürmə haqqında məhkəmə qətnaməsinə əsasən qətnamənin çıxarıldığı yer üzrə Qeydiyyat şöbəsi və konsulluq idarəsi tərəfindən aparılıb. Qeydiyyat şöbəsi və konsulluq idarəsi tərəfindən övladlığa götürmə haqqında akt qeydi məhkəmə qətnaməsində və övladlığa götürənlərin və övladlığa götürülənin şəxsiyyətini təsdiq edən sənədlərdə göstərilən məlumatlar əsasında tərtib edilib.

Dəyişikliyə əsasən, övladlığagötürmənin dövlət qeydiyyatı “Elektron məhkəmə” informasiya sistemindən Ədliyyə Nazirliyinin informasiya sisteminə daxil olmuş uşağın övladlığa götürülməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarışa (məhkəmə qətnaməsinin nəticə hissəsinə) əsasən qətnamənin çıxarıldığı yer üzrə qeydiyyat şöbəsi və konsulluq idarəsi tərəfindən aparılacaq. Qeydiyyat şöbəsi və konsulluq idarəsi tərəfindən övladlığagötürmə haqqında akt qeydi məhkəmə qətnaməsinin nəticə hissəsində qeyd olunan məlumatlar (övladlığa götürülənə soyadı və ata adı verilməsi, habelə onun adının dəyişdirilməsi, övladlığa götürülmüş uşağın doğulduğu yerin və ya tarixin dəyişdirilməsi, övladlığa götürənlər valideyn kimi yazıldıqda bu barədə məlumat) əsasında tərtib ediləcək.

Bu vaxta qədər övladlığa götürənlərin razılığı olmadan, onlar öldükdə isə qəyyumluq və himayə orqanının razılığı olmadan övladlığagötürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarından övladlığa götürənlərin övladlığa götürülənin doğma valideynləri olmadığını göstərən çıxarışlar vermək qadağan edilib. Bundan sonra Ailə Məcəlləsinin 130.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, övladlığa götürənlərin, onlar öldükdə isə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin razılığı olmadan övladlığagötürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti akt qeydlərindən bu barədə çıxarışlar, şəhadətnamələr və ya arayışlar vermək qadağan edilir.





İndiyə qədər qüvvədə olan Qaydaya görə, qeydiyyat şöbəsi və konsulluq idarəsi tərəfindən övladlığagötürmə haqqında akt qeydi tərtib olunarkən övladlığa götürülənə soyad və ata adı verilməsi, habelə onun adının dəyişdirilməsi, övladlığa götürülmüş uşağın doğulduğu yerin və ya tarixin dəyişdirilməsi, övladlığa götürənlərin valideyn kimi yazılması zəruriliyi övladlığa götürmə haqqında məhkəmə qətnaməsinə əsasən müəyyən edilib. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 118.20-ci maddəsinə uyğun olaraq “Elektron məhkəmə” informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə daxil olmuş uşağın övladlığa götürülməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarışa əsasən övladlığa götürmənin qeydiyyatı aparılıb. Dəyişikliklərlə əlaqədar bu müddəalar ləğv olunub.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Ödənişli və ödənişsiz çimərliklərdə fərq nədir?

**AYDINLIQ GƏTİRİLDİ**



“Bildiyimiz kimi, Azərbaycanda dənizin sahilinə daxil olmaq üçün hər hansı bir rüsum tələb edilmir, lakin çimərliklərdə xidmətlər mövcuddur”. Bu sözləri SİA-ya açıqlamasında sahibkar Asif Məmmədov deyib.

Onun sözlərinə görə, ödənişli xidmətlərə çətirlərin verilməsi, geyim kabinlərindən istifadə və təmizlik işlərinin aparılması aiddir: “Çimərliklərdən istifadə zamanı ərazi çirklənir. Buna görə biz məcbur oluruq ki, ərazini sezon boyunca hər gün təmizləyək. Ödənişli və ödənişsiz çimərliklərin fərqi ondan ibarətdir ki, suyun və dəniz sahilinin təmizliyinə xüsusi nəzarət olunur. Lakin ödənişsiz olan çimərliklərdə dəniz və sahili zibilli olduğundan buralardan istifadə sağlamlığa da təhlükə yaradır. Buna görə də ödənişsiz çimərliklərə insanlar az üz tutur. Ödənişli çimərliklərdə həm də mütəmadi olaraq dezinfeksiya işləri aparılır. Təbii ki, bunlara sahibkar müəyyən vəsait xərclədiyi üçün insanlara ödənişli təklif edilir”.

***Qönçə Quliyeva***

## “Yuventus” avrokuboklardan kənarlaşdırıldı

UEFA İtaliyanın “Yuventus” futbol klubu ilə bağlı şok qərar çıxarıb. SİA xəbər verir ki, qitə futbol qurumu İtaliya klubunu avrokuboklardan kənarlaşdırıb.

İtaliya mətbuatının yaydığı məlumata görə, UEFA “qoca sinyora”nın maliyyə pozuntusuna yol verdiyini təsdiqləyib. Buna görə də, komanda bu mövsüm Konfrans Liqasında çıxış edə bilməyəcək. Onu bu turnirdə ötən mövsüm A seriyasında 8-ci yeri tutan “Fiorentina” əvəzləyəcək.

Qeyd edək ki, “Yuventus” ötən mövsüm ölkə çempionatında 7-ci olub.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**